# BAYRAMƏLİBƏYOVA MƏRYƏM TEYMUR QIZI



Məryəm Bayraməlibəyova 1898-ci ildə Lənkəranda anadan olmuşdur. O, “Müqəddəs Nina” məktəbini 1917-ci ildə qurtarmışdır. 1918-21-ci illərdə Lənkəranda qız məktəbi, qadın xeyriyyə cəmiyyəti təşkil etmişdir. 1921-ci ildən Bakıda ictimai-mədəni fəaliyyət göstərmiş, N.Nərimanov adına Sənaye Texnikumunda, Azərbaycan Tibb İnstitutunda dərs demişdir. "Yeni məktəb" jurnalının fəal əməkdaşlarından olmuş, mətbuatda pedaqoji mövzularda məqalələrlə çıxış etmişdir. Azərbaycan müəllimlərinin 1-ci qurultayının nümayəndəsi olmuşdur. 1964-cü ildən fərdi pensiyaçı idi.

Bütün mənalı ömrünü Azərbaycanda maarif və mədəniyyətin inkişafı yolunda qoymuş Məryəm xanım keşməkeşli həyat yolu keçmiş, repressiya qurbanlarından biri olmuşdur. Bu fədakar qadın 90 il ömür sürmüşdür.

Kitabda Məryəm xanımın “Müqəddəs Nina” məktəbi haqqında xatirələri və onun haqqında “Azərbaycan müəllimi“ qəzetində dərc olunmuş yazı verilir.

# SİLİNMƏZ İZLƏR

Köhnə məktəblə yeni sovet məktəbi məsələsində fikirlərdə hələ mübahisələrin olduğu bir vaxtda Vladimir İliç öyrədirdi ki, köhnə məktəbi tamamilə inkar etmək olmaz. Onun mütərəqqi cəhətləri, kadr hazırlamaq bacarığı qiymətləndirilməlidir.

Əziz rəhbərimizin bu fikrini xatırlayarkən mənim "Müqəddəs Nina" məktəbində keçirdiyim günlər yadıma düşür. Çox ciddi, illərlə möhkəmlənmiş öz qanun-qaydaları olan bu nümunəvi təhsil ocağı respublikamızın maarif tarixində silinməz izlər qoymuşdur. Məktəb pansion xarakterli idi. Burada müxtəlif millətlərin uşaqları rus dilində təhsil alırdılar. Məktəb yeddiillik idi. Onun səkkizinci sinfi də vardı. Bu, pedaqoji sinif adlanırdı. Həmin sinfi bitirən qızlar müəllimlik etmək hüququ qazanırdılar. Məktəbdə kiçik hazırlıq və böyük hazırlıq sinifləri də vardı. Təlim-tərbiyə işi çox ciddi qoyulmuşdu. Müəllimlərimiz çox tələbkar idilər, öz işlərini ürəkdən sevirdilər. Məktəbin müdiri Anna Alekseyevna Salkova bütün təlim-tərbiyə işlərinə nəzarət edirdi. O, hər gün dərslərə girir, qızların səliqə-sahmanına və dərsə hazırlığına diqqət yetirirdi. Özü coğrafiyadan dərs deyirdi. Onun mənzili məktəbdə olduğu üçün bütün günü, hətta gecələr də diqqəti təlim-tərbiyə işlərinə yönəlmişdi. Hər bazar günü bizi teatra aparırdılar. Teatra getməzdən əvvəl o, bizimlə görüşər, bir-bir səliqəmizə baxar, yersiz, şit bər-bəzəyimizi görsə dərhal danlayar, özümüzü yenidən qaydaya salmağı tələb edərdi. Teatrdan qayıdanda da bizi başına yığıb tamaşa haqqında təəssüratımızı bilmək istəyirdi.

Yuxudan oyanan kimi səhər gimnastikası edir, yuyunur, nahardan sonra məktəbli formalarımızı geyinib sinif

otaqlarına girirdik. Sinifdə dərs deyən müəllimlə birlikdə nastavnitsa (hami tərbiyəçi) da olurdu. Onun vəzifəsi ədəb qaydalarını və intizamı qorumaq idi. Əgər bir şagird səs salsa, yaxud yersiz danışsaydı, o, gözünü ağardar, barmağı ilə işarə edərdi. Müəllim isə diqqətini fənnin təliminə və mənimsənilməsinə verərdi.

Hər sinfin özünün kiçik kitabxanası vardı. 7-8-ci siniflərin şagirdləri isə məktəbin ümumi kitabxanasından istifadə edə bilirdilər.

Dərsdən və gündüz yeməyindən sonra biz üç saat məktəbin həyətində açıq havada olur, oynayır, dram dərnəyində məşğul olur, mütaliə edir, müsamirələrə hazırlaşırdıq. Burada bizim estetik tərbiyəmizə də fikir verilirdi. Biz rəsmlə məşğul olur, rəqs etməyi öyrənirdik. Mən yeganə azərbaycanlı qız idim ki, dram dərnəyində iştirak edirdim. Yadımdadır ki, biz Puşkinin "Poltava" əsərini səhnələşdirərkən Mariya rolunda mən çıxış etmişdim.

"Müqəddəs Nina" məktəbində azərbaycanlı qızların sayı çox az idi. Hər sinifdə bir-iki nəfər olardı. Bunun ən başlıca səbəbi o dövrdə cəhalətin, fanatizmin müsəlman məişətində kök salması idi. O zaman müsəlmanlar öz qızlarını nəinki rus məktəbinə, heç Azərbaycan məktəbinə də qoymurdular.

Atam Teymur bəy maarifpərvər bir xalq müəllimi idi. Ailəmizin böyük olmasına baxmayaraq hər cür çətinliyə dözərək o, öz övladlarına təhsil verdirə bilmişdi. Mənim də taleyimdə atamın böyük rolu olmuşdur. Mən əvvəlcə Bakıda Birinci rus-müsəlman qız məktəbində oxumuşdum. Arzum təhsilimi artırmaq və gələcəkdə ali məktəbə girmək idi. Atam "Müqəddəs Nina" məktəbinin proqramını və lazımi ədəbiyyatı tapıb gətirdi. Mən bir il evdə yaxşıca hazırlaşdım. 1913-cü ildə atam məni "Müqəddəs Nina" məktəbinə gətirdi. İmtahanlardan əla qiymət aldığ-

ım və atamın xalq müəllimi olduğunu nəzərə alıb məni məktəbin 4-cü sinfinə götürdülər.

İlk gündən həvəslə çalışmağa başladım. Bütün fənlərdən əla qiymətlər aldım. 1917-ci ildə mən "Müqəddəs Nina" məktəbini qızıl medalla bitirdim. İlk baxışda çox sərt görünən bu təhsil ocağının qayda-qanunları mənim həyatımda silinməz izlər buraxdı. Burada öyrəndiyim biliklər, pedaqoji üsullar bir müəllim kimi mənə həmişə gərək oldu. Bu məktəbin mütərəqqi cəhətlərini mən öz pedaqoji fəaliyyətimdə həmişə tətbiq etməyə çalışmışam.

İndi 85 yaşım var. Amma buna baxmayaraq yenə də həmin məktəbdə öyrəndiyim, vərdiş etdiyim qaydalara əməl edirəm.

**“Azərbaycan qadını” jurnalı,**
**1983-cü il, №8**

***Mənalı ömrünü Azərbaycan maarifinə həsr etmiş, keşməkeşli bir həyat yaşamış bu mübariz, maarifpərvər qadını daha yaxından tanımaq üçün Xalq Təhsili Muzeyinin əməkdaşı Afət Əliyevanın Məryəm xanıma həsr olunmuş yazısını dərc edirik.***

# MƏRYƏM XANIM BAYRAMƏLİBƏYOVA

1898-ci ilin soyuq yanvar günlərinin birində Lənkəran şəhərində Azərbaycanın görkəmli xalq müəllimi Teymur bəy Bayraməlibəyovun ziyalı ocağında dünyaya bir qız uşağı da gəldi. Məryəm Teymur bəyin doqquz uşağından biri idi.Teymur bəy bütün çətinliklərə sinə gərərək bu uşaqları böyüdüb tərbiyə etmiş, onlara ali təhsil vermişdi.

Teymur bəy maarifpərvər bir xalq müəllimi idi və Məryəm xanımın taleyində böyük rolu olmuşdur. Məryəm xanım atasının yolu ilə gedərək müəllimliyi ömrünün qayəsi etmişdi.

Bu qeyrətli vətən qızının ömür yollarını yığcam belə qeyd etmək olar. Məryəm xanım Bayraməlibəyova ibtidai təhsilini Bakıda H.Z.Tağiyevin "Müsəlman-rus"məktəbində (1905-1911), orta təhsilini isə "Müqəddəs Nina" qız məktəbində almışdı. Oxumağa böyük həvəs göstərən Məryəm xanım ali təhsil almaq üçün Moskvaya gedir və tibb institutuna qəbul olunur. Lakin maddi vəziyyəti ağır olan bu gənc çox böyük çətinliklərlə qarşılaşır. O, neft sahibkarı M. Muxtarova kömək üçün müraciət edir. Muxtarov təqaüd verməyə başlayır. Məryəm xanım bu haqda xatirələrində yazır. "...Lakin Moskvada 2 aydan artıq qala bilmədim.İnqilabın başlanması ilə əlaqədar olaraq Bakıya qayıtdım."

Bakıda qalmaq üçün hər cür imkanın olmasına baxmayaraq, Məryəm xanım Lənkərana gedir. Orada qızları çox çətinliklə bir yerə toplayıb məktəb açır. Gənc müəllim ev-ev, qapı-qapı gəzib məktəbə 9-12 uşaq toplaya bilir. 1918-ci ildə burada qız məktəbi açılır. Məryəm isə onun müdiri olur. Onun şagirdi, ilk opera müğənnisi Həqiqət Rzayeva yazırdı: "Məryəm xanım qızları məktəbə cəlb etmək üçün özü də çadrada gəzirdi. Biz təkcə yazmaq, oxumaq öyrənmirdik, eyni zamanda səhnəciklər hazırlayıb valideynlərimiz qarşısında çıxış edirdik. Toplanan vəsait kasıb qızların məktəbə cəlb olunması üçün sərf edilirdi".

1921-ci ildə Məryəm xanım Bakıya köçür və müəllimlik peşəsi ilə bərabər həmkarlar ittifaqında çalışır. 1921-1923-cü illərdə Bakıda Qara şəhərdə həmkarlar ittifaqının təcrübə məktəbində işləyir. 1921-ci ildən 1924-cü ilədək o, ayrı-ayrı məktəblərdə, seminarlarda, texnikumlarda həmkarlar ittifaqı katibi işləyir.

Məryəm xanım Bayraməlibəyova 1925-ci ildə Bakıda Azərbaycan Müəllimlərinin I qurultayının nümayəndəsi olmuşdur. "Şərq qadını", "Maarif işçisi", "Yeni məktəb" və s. jurnallarda onun təlim-tərbiyə məsələlərinə dair məqalələri dərc edilirdi. Lakin həyatda bədxahlar, qara qüvvələr onun işıqlı yollarını zülmətə döndərirlər. Vaxtı ilə əri Cavad bəyin Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin üzvü olduğu və "xalq düşməni" damğası ilə həbs və sürgün edildiyi üçün üç uşaq anası olan, respublikanın ümid verən gözəl ziyalı qadını Məryəm xanım Bayraməlibəyova da təqibə məruz qaldı. Sonra "xalq düşməni" adı ilə uzaq Arxangelskiyə sürgünə göndərildi. Burada ağır işlərdən, işgəncələrdən, ağlamaqdan kor oldu. Lakin onun bu vəziyyəti qəddar ürəkləri yumşaltmadı.

O, dübarə Qazaxıstana sürgün olundu. 1948-ci ildə bəraət verilənədək Bakıda öz ailəsinin, uşaqlarının yanında yaşamağa qoymadılar. Beləcə Vətən üçün, xalq üçün yanan, onun tərəqqisinə çalışan bu mübariz qadın əzab və iztirablar içində yaşadı. Doxsan il ömür sürdü.

1988-ci ildə yurdumuzun üzərini qara buludlar alanda xalqımızın taleyindən nigaran halda gözlərini yumub əbədiyyətə qovuşdu. Məryəm xanım Bayraməlibəyovanın müəllimlik sənətinə olan sevgisi, gənc nəslin təlim-tərbiyəsinə göstərdiyi qayğı, bu yolda fədakarcasına çalışması respublikamızın təhsil ocaqlarında fəaliyyət göstərən müəllimlərimizə bir örnək, bir nümunə olmalıdır. Azərbaycan maarifi və mədəniyyəti tarixində dərin və unudulmaz iz qoymuş Məryəm xanım Bayraməlibəyovanın əziz xatirəsi, parlaq siması onu tanıyanların qəlbində əbədi yaşayacaqdır.

**Afət Əliyeva,**
***Respublika Təhsil Nazirliyinin***
***Xalq təhsili muzeyinin aparıcı işçisi***

# AKİM ƏLİ OĞLU ABBASOV



Akim Abbasov 1911-ci ildə Naxçıvanda anadan olmuşdur. 132 saylı məktəbi qurtaran ilk məzunlardandır. Bakı və Tiflis hərbi məktəblərini bitirmişdir. Böyük Vətən Müharibəsi başlayarkən 76-cı diviziyanın heyətində Qərb cəbhəsində vuruşmuşdur. 1942-ci ildə milli hərbi birləşmələr yaradıldıqda 402-ci atıcı diviziya qərargahında əməliyyat şöbəsinin rəisi, sonra həmin diviziyaya polk komandiri təyin edilmişdir. Müharibədən sonrakı illərdə polk komandiri, diviziya komandirinin müavini, komandiri vəzifələrində işləmişdir. Ehtiyata çıxandan sonra (1967) Azərbaycan SSR Avtomobil Nəqliyyatı nazirinin müavini vəzifəsində işləmişdir. 2 "Qırmızı Bayraq", iki "Qırmızı Ulduz" ordenləri, habelə medallarla təltif olunmuşdur.

# DİLBAZİ ƏMİNƏ PAŞA QIZI



Əminə Dilbazi 1919-cu ildə Qazaxda anadan olmuşdur. 132 saylı məktəbin rus bölməsində oxumuşdur. Əminə Dilbazi 1935-ci ildən rəqqasəlik fəaliyyətinə başlamışdır. 1936-69-cu illərdə M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyası Mahnı və Rəqs Ansamblının solisti, 1939-cu ildən fasilələrlə rəqs qrupunun rəhbəri olmuşdur. Dilbazinin oynadığı «İnnabı», «Tərəkəmə», «Vağzalı-Mirzəyi», «Turacı», «Naz eləmə» rəqsləri xüsusilə məşhurdur. «Leyli və Məcnun», «Arşın mal alan», «O olmasın, bu olsun» (Ü.Hacıbəyov) musiqili komediyaları və s. əsərlərdə rəqslərin quruluşunu vermişdir. 1949-cu ildən Xoreoqrafiya məktəbində pedaqoji fəaliyyət göstərir. Bir sıra xarici ölkələrdə çıxışlar etmişdir. 1957-ci ildə Moskvada keçirilən tələbə və gənclərin Ümumittifaq festivalında qızıl medala layiq görülmüşdür. «Şərəf nişanı» ordeni və medallarla təltif edilmişdir.



**Məktəbimizin ilk məzunlarından Əminə Dilbazi və bir qrup Azərbaycan bəstəkarı D.D.Şostakoviçlə**

# BƏDİRBƏYLİ LEYLA AĞALAR QIZI



Leyla Bədirbəyli 1920-ci ildə Bakıda anadan olub, məktəbi 1937-ci ildə bitirmişdir. 1952-ci ildə Azərbaycan Dövlət Teatr İnstitutunu bitirmişdir. 1937-42-ci illərdə Azərbaycan Dövlət Filarmoniyası Mahnı və Rəqs Ansamblının solisti olmuş, 1942-75-ci illərdə Azərbaycan Dram Teatrında işləmişdir. Teatrda "Dezdemona ("Otello" - Şekspir), Sara ("Solğun çiçəklər"- c.cabbarlı), Nərminə ("Göz həkimi" - İ.Səfərli), Şəlalə ("Yalan" - S.Rəhman), Liza ("canlı meyit" - L.Tolstoy), Fəxrəndə ("Mahnı dağlarda qaldı" - İ.Əfəndiyev)" rollarını oynamışdır. "Səbuhi" (1942), "Arşın mal alan" (1945), "Fətəli xan" (1947), "Dəli Kür" (1969), "Sevil" (1970), «Dərviş Parisi partladır» və s. filmlərdə çəkilmişdir. Uzun illər səmərəli fəaliyyətinə görə «Şərəf nişanı» ordeni və medallarla təltif edilmişdir.

Azərbaycan SSR-nin Xalq artisti, SSRİ və Azərbaycan SSR-nin Dövlət mükafatı laureatıdır.

# SEYİDBƏYLİ HƏSƏN MEHDİ OĞLU



Həsən Seyidbəyli 1920-ci ildə Bakıda anadan olmuşdur. 1937-ci ildə məktəbi bitirmişdir. 1943-cü ildə Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun rejissorluq fakültəsini bitirmişdir. Kinodramaturq, rejissor, yazıçıdır.

1960-cı ildən Əməkdar incəsənət xadimi, Xalq artistidir. 1963-80-ci illərdə Azərbaycan Kinematoqrafçılar İttifaqının İdarə Heyətinin sədri olmuşdur. «Azərbaycanfilm» Kinostudiyasında rejissor kimi fəaliyyət göstərmişdir. «Bakıdan Göy gölədək» (1947), «Böyük yol» (1948) kinooçerklərinin, «Telefonçu qız» (1962), «Belə ada da vardır» (1965), «cazibə qüvvəsi» (1966), «Çox sevdiyimiz adamlar», «Sən nə üçün susursan» (1966), «Bizim cəbiş müəllim» (1970), «O qızı tapın» (1971), «Nəsimi» (1973), «Qızmar günəş altında» (1958), «Uzaq sahillərdə» (1954) filmlərinin rejissoru olmuşdur.

Azərbaycan SSR Ali Sovetinin deputatı olmuş, «Qırmızı Əmək bayrağı», «Şərəf nişanı» ordenləri və medallarla təltif edilmişdir.

“Telefonçu qız”, “Cəbhədən cəbhəyə”, İllər keçir”, “Uzaq sahillərdə”, “Tərsanə” əsərlərinin, “Yuqoslaviya xatirələri”, “On beş gün Yaponiyada”, “İyirmi gün Amerikada” yol qeydlərinin müəllifidir.

# QULİYEVA ZƏHRA TAHİR QIZI



Zəhra Quliyeva 1922-ci ildə Bakıda anadan olmuşdur. Məktəbi 1940-cı ildə bitirmişdir.

1944-cü ildə Azərbaycan Dövlət Tibb İnstitutunu bitirərək, göz xəstəlikləri kafedrasında ordinator vəzifəsinə qəbul edilmiş, 1946-cı ildə assisent vəzifəsinə keçirilmişdir. 1957-ci ildə namizədlik, 1967-ci ildə doktorluq dissertasiyalarını müdafiə etmişdir. 1959-cu ildə Göz xəstəlikləri kafedrasının dosenti, 1968-ci ildə professoru seçilmişdir. 1975-1992-ci illərdə kafedra müdiri, 1972-ci ildə ADTİ-nin prorektoru, 1972-ci ildə isə rektor vəzifəsinə irəli çəkilmişdir. 13 il rektor işləmişdir. Tədqiqatları traxomaya, rəng duyğusu və müxtəlif amillərin ona təsiri, tor qişa və görmə siniri xəstəliklərində görmə orqanının funksiyasının öyrənilməsinə həsr olunmuşdur. 2 monoqrafiyanın müəllifidir. 1982-ci ildə Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür. 1998-ci ildən ömrünün sonunadək Azərbaycan Respublikası Qadın Problemləri üzrə Dövlət Komitəsinin sədri olmuşdur. 1998-ci ildə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

## *ZƏHRA QULİYEVANIN XATİRƏLƏRİNDƏN...*

Bakıdakı 48 saylı məktəbin ibtidai sinfini bitirdikdən sonra bizi 1934-cü ildə 132 saylı məktəbə köçürtdülər. Biz 132 saylı məktəblə çox fəxr edirik. Bu məktəb şəhərimizin ən gözəl yerində, mərkəzdə yerləşir. Bu məktəb şəhərdə

başqa məktəblərdən seçilən bir məktəbdir. Mən ora daxil olanda, qızlarla oğlanlar birlikdə oxuyurdular. Ondan başqa həm rus bölməsi, həm də Azərbaycan bölməsi var idi. Sonralar rus bölməsini ayırıb 134 saylı məktəb etdilər. Həqiqətən məktəb illəri çox gözəl bir dövrdü. Mən çox fəxr edirəm ki, 132 saylı məktəbdə təhsil almışam. O, vaxtlar qızıl medal yox idi, əla qiymətlər alan şagirdlər istənilən instituta imtahansız girə bilərdilər. Mən istəyirəm ki, indiki uşaqlar əla oxusunlar, qiymət naminə yox, savad naminə. Mən keçmiş sinif yoldaşlarımla çox fəxr edirəm, bu gün də onlarla ailəliklə dostluq edirik. Belə dostluq etdiyim şagirdlərimizdən biri də akademik Kamal müəllimdir. A.Şaiqin sevimli övladıdır. Bizim sinfimizdə Adil adında 5 şagird var idi. Bu Adillərdən birinə sinfimizdə nədənsə Colu deyirdik. Bu, Quliyev Adil idi ki, sonralar o, Sovet İttifaqı Qəhrəmanı adını aldı. Biz onunla tez-tez görüşürdük, dostluq edirdik. Bizim sinfimizin xüsusi rəssamı da var idi: Nəcəfqulu Nəcəfov. Bütün dərsi oturardı, nəsə çəkərdi. Sinif rəhbərimiz Fatma xanım idi, yubileyində Nəcəfqulu onun şəklini çəkmişdi, şəkildə Fatma müəllimə uşaq kalyaskasını sürərək gedirdi, kalyaskada da bizim sinfin uşaqları oturmuşdu. Sinfimizdə çox istedadlı uşaqlar oxuyub.

**Xatirə 2001-ci ildə AzTV-də keçirilmiş<br>“Görüş yeri” verilişindən ixtisarla hazırlanmışdır.**

## QULİYEV ADİL HÜSEYN OĞLU



Adil Quliyev 1922-ci ildə Bakıda anadan olmuşdur. Məktəbi 1940-cı ildə qurtarmışdır. Sovet İttifaqı Qəhrəmanıdır. Stalinqrad hərbi təyyarəçilik məktəbini bitirmişdir. 1941-ci ildə Sovet Ordusuna çağrılmış, Oryol, Bryansk, Belorusiya, Pribaltika və Şərqi Prussiyanın azad edilməsində igidlik göstərmiş, Berlinədək döyüş yolu keçmişdir. A.Quliyev 265 döyüş uçuşu və 64 hava döyüşü keçirmiş, düşmənin 18 təyyarəsini vurmuşdur. Müharibədən sonra ordu sıralarında qalaraq təyyarə eskadrilyası komandiri vəzifəsində işləmişdir. 1951-ci ildə Qırmızı Bayraqlı Hərbi Hava Akademiyasını bitirmişdir. 1966-cı ildə ehtiyata buraxılmışdır. Zabrat mülki təyyarə limanının rəisi idi. 1971-ci ildən Azərittifaqda işləmişdir. "Qırmızı Bayraq", "Aleksandr Nevski", I dərəcəli "Vətən müharibəsi", "Qırmızı Ulduz" ordenləri və medalları ilə təltif olunmuşdur.



## İBRAHİMOV ELXAN XƏLİL OĞLU

Elxan İbrahimov 1921-ci ildə Bakıda jurnalist ailəsində anadan olmuşdur. 1940-cı ildə məktəbi bitirdikdən sonra ADU-nun (indiki BDU) filologiya fakültəsini qurtarmışdır.

1947-ci ildə Bakıda SSRİ Bədii Fondunun ümumazərbaycan şöbəsinin bədii sərgi salonunun müdiri, Moskvada SSRİ Baş Poliqrafiya Nəşriyyatında yerli nəşrlər şöbəsinin müdiri, SSRİ Ali Məhkəməsində tərcüməçi kimi işləmişdir. Müxtəlif illərdə C.Cabbarlı adına "Azərbaycanfilm"-də ssenari şöbəsinin müdiri, Azərbaycan Radio və Televiziya Verilişləri Komitəsində "Ekran" filmlərinin baş redaktoru, "Literaturnı Azərbaycan" jurnalında məsul katib, Azərbaycan Dövlət Nəşriyyatında uşaq və gənclər ədəbiyyatı redaksiyasında şöbə müdiri, "Gənclik" nəşriyyatında baş redaktor və s. vəzifələrdə çalışmışdır.

Bədii tərcümə ilə də məşğul olan Elxan İbrahimov M.Hüseyn, S.Rəhimov, Mir cəlal, Ə.Vəliyev, İ.Şıxlı, B.Bayramov, İ.Məlikzadə və s. Azərbaycan yazıçılarının əsərlərini rus dilinə, M.Qorki, A.Şişov, B.Yemelyanov, Y.Qaşekinin əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir.

## İSMAYILOV NƏJƏFQULU ƏBDÜRRƏHİM OĞLU



Nəcəfqulu İsmayılov 1923-cü ildə Bakıda anadan olmuşdur. 1940-cı ildə məktəbi qurtardıqdan sonra Azərbaycan Dövlət Rəssamlıq Texnikumunu bitirmişdir. 1952-1979-cu illərdə "Kirpi" jurnalında işləmişdir. Tarixi mövzuda kompozisiyaların "Nəsiminin edamı" (1958) və portretlərin "Qubalı Fətəli xan" (1973), "Ana", "S.Vurğun" (1967, "Memar M.Hüseynov" (1973, "Ü.Hacıbəyov" (1975) müəllifidir. "Kirpi" jurnalına yüzlərlə yumoristik rəsm və karikaturalar çəkmişdir.

C.Məmmədquluzadənin hekayələrinə, Sabirin "Hop-hopnamə"sinə şəkillər çəkmişdir. M.Füzulinin, M.Ə.Sabi-rin. Ü.Hacıbəyovun barelyeflərini yaratmışdır. Əsərləri Almaniyada, Kanadada, Livanda və s. ölkələrdə nümayiş etdirilmişdir.

## ƏLİYEVA
## ƏDİLƏ ƏLİHÜSEYN QIZI



Ədilə Əliyeva 1923-cü ildə Bakıda anadan olmuşdur. Məktəbi 1940-cı ildə bitirmişdir. S.M.Kirov adına ADU-nun (indiki BDU) filologiya fakültəsində təhsil almışdır (1940-1945). Azərbaycan KP MK yanında Partiya Tarixi İnstitutunda elmi işçi kimi ədəbi fəaliyyətə başlamışdır.

Moskvada Dövlət Teatr İnstitutunda təhsilini davam etdirmişdir.AMEA-nın Memarlıq və İncəsənət İnstitutunda elmi işçi, teatr və kino şöbəsinin müdiri olmuşdur.

Tənqidçi, ədəbiyyatşünas, teatrşünas Ədilə Əliyeva Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı və iki medalla təltif olunmuşdur.

# TALIBZADƏ KAMAL
# ABDULLA ŞAİQ OĞLU



Kamal Talıbzadə 1923-cü ildə Bakı şəhərində anadan olmuşdur. 1940-cı ildə məktəbi bitirib, Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə daxil olmuşdur. 1945-ci ildə isə ali təhsilini başa vurmuşdur. Talıbzadə həmin ildən də Azərbaycan Elmlər Akademiyası Nizami adına Azərbaycan Ədəbiyyatı İnstitutunda işləməyə başlamışdır.

Azərbaycan ədəbiyyatşünaslığında tənqid tarixi və nəzəriyyəsinin, tənqidşünaslığın müstəqil elmi sahə kimi yaranması K.Talıbzadənin adı ilə bağlıdır. Onun qələmindən klassik irs və sovet ədəbiyyatı nəzəriyyəsi problemlərinə dair dörd yüzdən artıq fundamental tədqiqat, elmi, publisistik və elmi-kütləvi məqalə çıxmışdır. K.A.Talıbzadə "Abbas Səhhət" (1955, 1963, 1986). "Qorki və Azərbaycan" (1959). "XX əsr Azərbaycan tənqidi" (1966). "Tənqidimiz haqqında qeydlər" (1967). "Qorki v Azerbaydjane" (1970). "Ədəbi irs və varislər" (1974). "Sənətkarın şəxsiyyəti" (1978). "Azərbaycan ədəbi tənqidinin tarixi" (1984). "Tənqid və tənqidçilər" (1989). "Seçilmiş əsərlər" (2 cilddə - 1991. 1994) və s. kimi monoqrafiya və kitabların müəllifidir.

"Azərbaycan ədəbi tənqidinin tarixi" kitabı isə 1986-cı ildə Respublika Dövlət Mükafatına layiq görülmüşdür.

Görkəmli alim və elm təşkilatçısı, Azərbaycan EA həqiqi üzvü, əməkdar elm xadimi, Dövlət Mükafatı laureatı, qabaqcıl maarif xadimi, professor K.Talıbzadənin elmi fəaliyyəti çoxsahəlidir. Onun Moskvada beynəlxalq miqyaslı olan "Müxtəlif ədəbiyyat ensiklopediyası". "Müxtəsər sovet

ensiklopediyası", "Teatr ensiklopediyası", "Dünya ədəbiyyatı tarixi", həmçinin Bakıda "Azərbaycan sovet ensiklopediyası" səhifələrində Azərbaycan ədəbiyyatı ilə bağlı çoxsaylı oçerkləri, tədqiqatları dərc olunmuşdur. K.Talıbzadə xarici ölkələrdə və respublikamızda keçirilən beynəlxalq konfrans, simpozium, elmi yığıncaq və sessiyaların fəal təşkilatçı və iştirakçılarından olmuşdur. Alim 1960-cı ildə şərqşünasların XXV Beynəlxalq Ümumdünya Konqresinə dəvət olunmuş, 1977-ci ildə İtaliyanın Neapol Şərqşünaslıq İnstitutunda, 1986-cı ildə Hindistan Respublikasının Puna Universitetində, 1990-cı ildə Türkiyədə keçirilən "Birinci Millətlərarası Böyük Azərbaycan konqresində", 1991-ci və 1995-ci illərdə Nizami və Füzuli yubileylərinə həsr olunmuş Beynəlxalq Tehran konqreslərində və başqa bu kimi nüfuzlu elmi toplantılarda konseptual elmi məruzələrlə çıxış etmişdir.

O, 1952-ci ildə 29 yaşındaikən Nizami adına Ədəbiyyat İnstitutunun "XIX-XX əsrlər ədəbiyyatı" şöbəsinin müdiri vəzifəsinə təyin olunmuşdur. 1960-cı ildən 1981-ci ilin iyununa qədər həmin institutda elmi işlər üzrə direktor müavini vəzifəsində çalışmış, direktor vəzifəsini icra etmişdir. l981-1986-cı illərdə "Tənqid tarixi və nəzəriyyəsi", 1986-1994-cü illərdə isə "Yeni dövr ədəbiyyatı" şöbələrinə rəhbərlik etmişdir.

K.Talıbzadə 1998-ci ildə Müstəqil Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

## *KAMAL TALIBZADƏNİN XATİRƏLƏRİNDƏN...*

Biz Zərifə xanımla çox şeyləri yada saldıq. Mən evdə fotoları araşdıranda çox məqamlar yadıma düşdü. Burada mən bir şəkli sizə nümayiş etdirmək istəyirəm. Biz hər il Dağüstü parkda görüşərdik. O günləri xatırlamaq mənim üçün çox çətindir. Mənim yaşım 80-ə yaxınlaşır və mənim

tələbə dostlarımın 90 faizi artıq həyatda deyil. Mən bir məzun kimi çox tənhalıq keçirirəm. Mən onların hamısını bir-bir yada salıram. Lakin onları görə bilmirəm. Onların hamısı ilə xüsusi münasibətim olub. Təsəvvür edin ki, Adil Quliyevin oğlu olanda o mənə Moskvadan zəng etdi və dedi ki, onun adını Kamal qoymaq istəyir. Zəng vurmaqda məqsədi məndən icazə almaq idi.

**"Görüş yeri" verilişindəki çıxışından ixtisarla**

## BAĞIRZADƏ FAİQ MƏMMƏD OĞLU



Faiq Bağırzadə 1926-cı ildə Bakıda anadan olmuşdur. Məktəbi 1943-cü ildə bitirmişdir. Azərbaycan Sənaye İnstitutunun geologiya fakültəsinə daxil olmuş və oranı neftçi-geoloq ixtisası üzrə bitirmişdir. M.Əzizbəyov adına Azərbaycan Neft Kimya İnstitutunda geoloji kəşfiyyat fakültəsinin dekanı (1962-65-ci illər), xarici tələbələrin təhsili fakültəsinin dekanı (1965-70) olmuşdur. 1970-ci ildən 1987-ci ilə qədər S.M.Kirov adına ADU-nun (indiki BDU) rektoru olmuşdur. 1964-65 tədris ilində Ranqun Texnoloji İnstitutunda (Birma) neft və geologiya fənnindən mühazirələr oxumuşdur. Qırmızı Əmək bayrağı ordeni ilə təltif olunmuşdur. Azərbaycan SSR Ali Sovetinin 8-9-cu çağırış deputatı olmuşdur. Geologiya-mineralogiya elmləri doktoru, AMEA-nın akademiki idi.

**F.Bağırzadənin elmi fəaliyyəti ilə bağlı jurnalist Mehparə Axundovanın yazısını dərc edirik.**

## *NEFT-QAZ GEOLOGİYASININ BİLİCİSİ*

"Köhnə rektorlar pleadasının ən görkəmli, ən böyük şəxsiyyətlərindən biri Faiq Bağırzadə idi".

Bu sözlər akademik Vasim Məmmədəliyevə məxsusdur.

Faiq Bağırzadə düz 17 il Azərbaycan Dövlət Universiteti kimi nüfuzlu təhsil ocağına rəhbərlik etmişdi. O, böyük təşkilatçılıq qabiliyyətinə malik olmaqla yanaşı, neft-qaz axtarışı sahəsinin bilicisi kimi keçmiş ittifaqda və xarici ölkələrdə tanınırdı. Müəllifi olduğu "Azərbaycanda geokimyəvi anomoliyalar" adlı xəritəyə bir növ tədqiqatlarının yekunu kimi baxmaq olar. Cənubi Xəzərin neft-qaz yataqlarının geologiya və geokimyasının bu cür hərtərəfli elmi tədqiqi zəngin neft yataqlarının kəşfi ilə nəticələndi.

Faiq Bağırzadə 1926-cı ilin mayın 20-də Bakıda anadan olmuşdu. Atası Məmməd kişi əslən İrəvandan olub, qollu-budaqlı bir nəslin nümayəndəsi idi. Bu nəsldən Heydər Hüseynov, Səid Rüstəmov, Yusif Mirbağırov kimi məşhur şəxsiyyətlər çıxmışdı. 1915-ci ildə İrəvandan Bakıya köçməyə məcbur olan Məmməd kişinin ailəsində üç uşaq böyüyürdü. Məmməd kişi dünyasını çox erkən dəyişdi. Üç övladını – Faiqi, Kamranı, Rövşanəni həyat yoldaşı Firuzə xanıma əmanət edib, bu dünyadan köçdü.

Ailə çox böyük məhrumiyyətlərlə üz-üzə qaldı. Dəhşətli repressiya illəri, tuthatutlar gənc Faiqin qəlbində sağalmaz izlər qoydu. 1937-ci ilin yaraları sağalmamış Böyük Vətən müharibəsi başlandı. Ailənin güzəranı bir qədər də ağırlaşdı. Ağır həyat tərzinə baxmayaraq, Faiq əla qiymətlərlə oxuyurdu. Baxçada tərbiyəçi-müəllimə işləyən Firuzə xanım birtəhər övladlarını böyüdürdü.

Faiq Bağırzadə müharibə illərində 132 saylı məktəbi bitirərək Azərbaycan Sənaye İnstitutunun geoloji-kəşfiyyat fakültəsinə daxil oldu. Anasının çox əziyyət çəkdiyini görüb tələbə ikən işləməyə başladı. İnstitutu bitirdikdən sonra isə elm yolunu seçdi. Gecəli-gündüzlü tədqiqatlar 1953-cü ildə "Abşeron yarımadasının sahilboyu və ona bitişik sahillərdə Qala dəstəsinin kəşfiyyatı" mövzusunda dissertasiya müdafiə etdi. Təşkilatçılıq qabiliyyətini

nəzərə alıb Faiq müəllimi Neft və Kimya İnstitutunun geoloji-kəşfiyyat fakültəsinin dekanı təyin etdilər.

Abşeronda neftli-qazlı sahələrin öyrənilməsi ilə bağlı doktorluq dissertasiyası müdafiə etdikdən sonra mütəxəssislərin onun elmi işlərinə marağı artdı. Faiq müəllimin səsi keçmiş ittifaqın mötəbər elmi məclislərindən gəlirdi. Çox keçmədi Birmanın Ranqun Texnologiya İnstitutunda ingilis dilində mühazirələr oxumağa dəvət aldı. Daha sonra Almaniyanın Frayburq Mədən Akademiyasında və Qomerdə "Neft-qaz" elmi tədqiqat institutunda uzunmüddətli elmi ezamiyyətdə oldu.

1970-ci ildə Faiq Bağırzadə Bakı Dövlət Universitetinə rektor təyin edildi. Zahirən ciddi, qaraqabaq görünsə də, daxilən çox kövrək idi. Ehtiyac içində yaşayanlara həmişə kömək edərdi. Deyilənə görə, hətta öz məvacibindən kasıb tələbələrə pul da verərdi.

Bakı Dövlət Universitetinin elmi kitabxanasının direktoru Sara İbrahimova Faiq müəllimdən rəğbətlə danışdı. Dedi ki, Faiq müəllim universitetin hər bir əməkdaşının qayğısına qalardı. İşə görə bəzən kimisə danlayar, amma 5-10 dəqiqə keçməmiş həmin adamın könlünü alardı.

Çoxları bilmir ki, bu böyük alim şeir də yazardı. Onun şeirlərinə Tofiq Quliyev, Emin Sabitoğlu, Cavanşir Quliyev, Telman Hacıyev, Oqtay Kazımov mahnı bəstələyiblər.

Faiq müəllim saysız-hesabsız ixtisaslı kadrların hazırlanmasında, Şahdəniz, Çıraq, Azəri kimi neft yataqlarının aşkara çıxarılmasında çox böyük xidmətləri olmuşdu.Bir sıra orden və medallarla, fəxri adlarla təltif olunmuşdu.

1988-ci ilin martın 24-də dünyasını dəyişən Faiq Bağırzadə həm böyük alim, həm də müdrik insan kimi xatirələrdə yaşayır.



**Mehparə AXUNDOVA,**

***«Elm və həyat» jurnalının şöbə müdiri***

# TALIBZADƏ
# GÜLBƏNİZ ABDULLA ŞAİQ QIZI



Gülbəniz Talıbzadə 1926-cı ildə Bakıda anadan olmuşdur. Məktəbi 1943-cü ildə bitirmişdir.

Elə həmin ildə də sənədlərini Azərbaycan Dövlət Tibb institutuna verib, institutu otolarinqoloq ixtisası üzrə bitirmişdir. Uzun illər Semaşko adına xəstəxanada cərrahi otolarinqologiya şöbəsində, Volodarski adına Tikiş fabrikinin poliklinikasında, 1962-ci ildən 1991-ci ilədək Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutunun poliklinikasında həkim işləmişdir.

1995-ci ildən isə ailəsi ilə birgə Kanadaya köçmüşdür.

# BABAYEV NURƏDDİN



Nurəddin Babayev 1921-ci ildə Gəncə şəhərində anadan olmuşdur. Orta təhsilini Bakıda 132 №-li məktəbdə almışdır. 1949-cu ildə Azərbaycan Dövlət Universitetini bitirmişdir. 1939-cu ildə mətbuat aləminə gələn N.Babayev hələ orta məktəbdə oxuyarkən "Azərbaycan pioneri" qəzetində əməkdaşlıq etməyə başlamışdır. Böyük Vətən müharibəsi iştirakçısıdır.

1945-ci ildə Sovet İttifaqı Qəhrəmanı Gəray Əsədova həsr edilmiş "Əbədi qəhrəmanlıq" adlı ilk kitabını çap etdirmişdir. Sonralar "Bacılar", "Böyük qüvvə" (1950), "Təzə dostlar" (1959), "Bahar övladları" (1959), "Ürəklər bir olanda" (1961), "İşıq və məhəbbət" (1963), "Biz Azərbaycandanıq" (1965), "Oğluma məktublar" (1966), "Ulduzlar sönmür" (1966), "Səni unutmuruq" (1970), "Qızlar, sözüm sizədir" (1972), "Qızlar söz istəyir" (1977), "Ürəyimdə sözüm var" (1980), "Gəlin kişilikdən danışaq" (1980), "Açıq söhbət" (1982), "Elə yaz ki" (1985) kitabları işıq üzü görmüşdür. Ümumiyyətlə, Azərbaycan, rus və bir sıra xarici dillərdə çıxan 22 kitabı oxucuların rəğbətini qazanmışdır. "Atalar və oğullar" əsəri isə Bolqarıstanda məktəb dərsliyinə salınmışdır.

Professor N.Babayevin Azərbaycanda ali jurnalistika təhsilinin inkişafında və peşəkar jurnalist kadrlarının yetişdirilməsində böyük xidmətləri var. 1969-cu ildə Azərbaycan Dövlət Universitetində jurnalistika fakültəsi yaradılarkən onun ilk dekanı olmuşdur. Uzun illər jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasına rəhbərlik etmişdir.

Bədii oçerkin inkişaf yoluna dair elmi araşdırmaların müəllifidir. "Mübariz janr" (1958) və "Oçerk sənətkarlığı" (1978) kitabları çapdan çıxmışdır.

Onun redaktorluğu və müəllif kimi iştirakı ilə çapa hazırlanmış iki hissədən ibarət "Jurnalistika məsələləri" adlı dərs vəsaiti Azərbaycan Jurnalistlər İttifaqının "Qızıl Qələm" mükafatına layiq görülmüşdür. Birinci dəfə isə N.Babayev həmin mükafatı "Oğluma məktublar"a görə almışdır. O, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi adına layiq görülmüşdür. Uzun illər Azərbaycan Jurnalistlər İttifaqının katibi olmuşdur.

# QASIMOV
# İSMAYIL İSRAFİL OĞLU



Qasımov İsmayıl 1919-cu ildə Şəkidə anadan olmuşdur.

Məktəbi 1937-ci ildə bitirmişdir. Həmin ildə Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası ) energetika fakültəsinə daxil olmuş, 1942-ci ildə oranı istilik texnikası mühəndisi ixtisası üzrə bitirmişdir.

Müharibə illərində cəbhə üçün işləyən zavodlarda çalışmışdır. 1943-cü ildə Dzerjinski adına zavodda istilik texnikası mühəndisi, baş mühəndis, 1947-1948-ci illərdə Bakı şəhər Partiya Komitəsinin Fabrik-Zavod Təhsili məktəbinin direktoru, 1951-ci ildə Bakı Şəhər Tikinti trestinin rəis müavini, 1954-cü ildən rəisi, 1956-65-ci illərdə Bakı şəhər Sanitar Texnikasının Təmiri trestinin rəisi, 1966-67-ci illərdə Bakı Baş Tikinti İdarəsinin rəis müavini, "Aztorqmontaj" kombinatının direktoru, "Aztorqtexnika"nın direktor müavini işləmişdir.

"Qafqazın müdafiəsi", "Böyük Vətən müharibəsində fədakar əməyə görə" medalları, "Şərəf nişanı", "Böyük Vətən müharibəsində qələbənin 20 illiyi", ordenləri və s. dövlət təltifləri vardır.

## QASIMOV İBRAHİM İSRAFİL OĞLU



Qasımov İbrahim 1923-cü ildə anadan olmuşdur. Məktəbi 1940-cı ildə əla qiymətlərlə bitirmişdir.

1946-cı ildə Azərbaycan Sənaye institutunu mühəndis-texnik ixtisası üzrə bitirmiş və əlaçı tələbə olduğundan fakültədə dekan müavini vəzifəsində saxlanılmışdır.

1963-cü ildən Azərquraşdırma xüsusi tikinti trestində texniki şöbənin müdiri, sonralar 2 saylı Bakı Tikinti Quraşdırma İdarəsinin rəisi vəzifələrində çalışmışdır.

1976-cı ildə Əməkdar inşaatçı adına layiq görülmüşdür.

## SƏMƏDOV FUAD İBRAHİM OĞLU



Fuad Səmədov 1926-cı ildə Şamaxı şəhərində qulluqçu ailəsində anadan olub.

1943-cü ildə Bakının 132 saylı məktəbini əla qiymətlərlə, 1949-cu ildə isə M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun geoloji kəşfiyyat fakültəsini müvəffəqiyyətlə (o vaxtlar Stalinin adını daşıyan ən yüksək təqaüdlə) bitirib. Ona aspiranturada təhsilini davam etdir-

mək təklif olunmasına baxmayaraq, o, Xəzər dənizində neft yataqlarının axtarışı və işlənməsində iştirak etmək məqsədilə istehsalata getməyi daha üstün tutmuşdur.

1949-cu ildə onu "Azərneftkəşfiyyat" İB böyük geoloq vəzifəsinə, həmin ilin sentyabrında isə "Azdənizneft" İB Gürgan qazma kontoruna baş geoloq vəzifəsinə təyin edirlər.

1952-ci ildə Fuad Səmədov Gürgan neftçıxarma birliyinə (Neft Daşları) baş geoloq təyin edilir. Neft Daşlarında işlədiyi vaxt o, özünü neft geologiyası üzrə yüksək ixtisaslı mütəxəssis kimi göstərərək, bütün qüvvəsini respublikanın neft-qaz yataqlarının axtarışı və işlənməsinə sərf edib. Onun rəhbərliyi zamanı bir sıra neft-qaz yataqları açılıb. Bunlardan Palçıq Pilpiləsi, Səngəçal-dəniz, Duvannı-dəniz, Bulla adası və Bahar yataqlarını göstərmək olar. Qeyd etməliyik ki, bu yataqların açılması dənizdə neftin və qazın hasilatını artırmaqla yanaşı, respublikanın yeni neft-qaz bazasının yaradılmasında əsas amillərdən olmuşdur.

Görülən işlərin nəticələri Fuad səmədovun dəniz neft geologiyasına həsr etdiyi "Neft Daşları" monoqrafiyasında öz əksini tapıb. 1959-cu ildə geologiya-mineralogiya elmləri namizədi elmi dərəcəsinə layiq görülmüşdür.

1960-1963-cü illərdə o, Azərbaycan EA-nın Dərin Neft-qaz yataqları institutunda elmi işlər üzrə direktor müavini işləmişdir. 1963-cü ildə onu yeni yaradılmış "Başdəniz" Birliyinə baş geoloq təyin edirlər, istehsalatda çalışmaqla yanaşı, böyük elmi-tədqiqat işləri aparır.

O, 100-dən çox çap edilmiş əsərin, o cümlədən 5 monoqrafiyanın müəllifidir, eyni zamanda pedaqoji fəaliyyətlə də məşğul olub.

Onun elmi əsərləri əsasən nefti müşayiət edən mədən sularının kimyəvi tərkibinin öyrənilməsinə, onların əmələ

gəlməsinə, işlədilməsinə, Neft Daşları yatağının və Abşeron yarımadasının neft-qaz yataqlarının kollektor xassələrinə və s. həsr edilib.

F.Səmədov istehsalat-elmi yaradıcılığı ilə yanaşı təşkilatı iş də aparırdı. Belə ki, o dəfələrlə (1953-1959-cu illərdə) Bakı Şəhər Sovetinin millət vəkili, eləcə də Azərbaycan Gənclər Təşkilatının və SSRİ neft sənayesi həmkarlar İttifaqının, Bakı Partiya Komitəsinin üzvü, 1953-cü ilə Ümumdünya Sülh və Gənclər konqreslərinin iştirakçısı olub.

F.Səmədov Dəniz neft-qaz sənayesinin inkişafında xidmətlərinə görə Əməkdar mühəndis fəxri adına, "Lenin", "Qırmızı Əmək" ordenlərinə və o zamanın ən böyük Dövlət (Lenin) mükafatına layiq görülüb.

## ƏFƏNDİYEVA ƏDİLƏ MƏMMƏD QIZI



Ədilə Əfəndiyeva 1926-cı ildə anadan olmuşdur. 1934-cü ildə Bakıdakı 132 saylı məktəbə daxil olmuş, 1944-cü ildə oranı bitirdikdən sonra Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə qəbul olunmuşdur. 1949-cu ildə institutu fərqlənmə diplomu ilə bitirib, 1955-ci ilə qədər ailə vəziyyəti ilə əlaqədar işləməmiş, Moskvaya köçdükdən sonra, Moskva Vilayət Mamalıq və Gigiyena

Elmi-Tədqiqat institutunda ordinator, 1957-ci ildə Moskva 33 saylı doğum evində həkim, 1957-1962-ci illərdə Bakı şəhər Semaşko adına xəstəxanada ordinator işləmişdir.

"Qanın laxtalanma və əkslaxtalanma sistemlərinin gedişi" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Onun üç elmi işi çap olunmuş, iki səmərələşdirici təklifi var. Əla kateqoryalı mama-ginekoloqdur.

## SULTANOVA SƏADƏT ƏHƏDXAN QIZI



Səadət Sultanova 1927-ci ildə ziyalı ailəsində anadan olmuşdur. Məktəbi bitirərək Azərbaycan Dövlət Universitetinin geoloji kəşfiyyat - coğrafiya fakültəsinə daxil olmuş, 1952-ci ildə universiteti bitirdikdən sonra Azərbaycan Respublikasının Geologiya idarəsində mühəndis geoloq, Gədəbəy rayonu ərazisində geoloji-kəşfiyyat işləri aparan dəstədə baş geoloq vəzifəsində çalışmışdır. 1959-cu ildən Bakı su kəmərləri idarəsinin Şollar xidmətində baş mühəndis vəzifəsinə təyin olunmuşdur. Az müddətdən sonra Şollar su xidmətinin rəisi vəzifəsinə irəli çəkilmişdir.

1981-ci ildən fəxri təqaüdçüdür.

# BABAYEV
# RASİM HƏNİFƏ OĞLU



Rasim Babayev 1927-ci ildə Bakıda anadan olmuşdur. 1943-cü ildə məktəbi qurtardıqdan sonra Azərbaycan Dövlət Rəssamlıq məktəbində və B.İ.Surikov adına Moskva Rəssamlıq İnstitutunda təhsil almışdır. "Daşkəsən", "Sumqayıt", "Qobustan", "Xınalıq" linoqravüra silsilələrinin, habelə "Ölüm düşərgəsi", "Qardaş xatirəsi", "Dağlar", "Yer", "Göy", "Əzbay", "Qardaşımın xatirəsinə", "Qaçaq Nəbi", "Yaz", "Türk atı", "Qədim Türk yazıları", "Sofi Həmid", "Ağlayan mələykə", "Div cəhənnəmdə", "Dərd" və s. boyakarlıq əsərlərinin müəllifidir. Rasim Babayev, kitab tərtibatı və illüstrasiyası (Rabindranat Taqorun "Fəlakət", Nazim Hikmətin "Kəllə" əsərləri və s.) sahəsində də çalışıb.

Bir sıra uşaq kitablarına rəngli illüstrasiyalar çəkmişdir. Əsərləri bir sıra xarici ölkə sərgilərində, Moskvada Tretyakov Qalereyasında və Şərq xalqları əsərləri incəsənət muzeyində (Moskva) nümayiş etdirilib.

Rasim Babayev ali təhsilini Moskvada Surikov adına rəssamlıq institutunda almışdır. Bakıda Əzim Əzimzadə adına rəssamlıq məktəbinə daxil olmazdan əvvəl 132 saylı məktəbdə oxuduğu illəri belə xatırlayarmış: "Oxuduğum o bir neçə ili məktəbin ən dəcəl şagirdi kimi tanınırdım. Müəllimlər əlimdən zara gəlmişdilər. Lakin yaxşı şəkil çəkdiyimə görə günahlarım bağışlanırdı. Sinfimizdə yaradıcı insanlar çox idi. Tanınmış müğənnilərimizdən Gülağa Məmmədov və Nərminə Məmmədova ilə bir yerdə oxuyurdum."

# MƏMMƏDOV GÜLAĞA



Gülağa Məmmədov 1925-ci ildə Bakıda anadan olmuşdur. məktəbi 1943-cü ildə bitirib. sinif yoldaşlarından fərqli olaraq, Gülağa 12-13 yaşında məşhurlaşıb. 1938-ci ildə Moskvada keçirilən Azərbaycan mədəniyyəti və incəsənəti dekadasının iştirakçısı olub. böyük Teatrın səhnəsində mayestro Niyazinin müşayiəti ilə Üzeyir Hacıbəyovun Koroğlu operasından "Səni gördüm, aşiq oldum" ariyasını çox gözəl ifa edib, gümüş medala və fəxri fərmana layiq görülüb.

Üzeyir Hacıbəyov yeniyetmə Gülağanın səsinin batmasından ehtiyat edərək ona musiqi məktəbinin tar sinfinə getməsini məsləhət görüb. Müharibə illərində döyüşçülər qarşısında çıxışlar edir. müharibə qurtardıqdan sonra musiqili səhnə əsərlərində baş rollarda - Məcnun ("Leyli və Məcnun"), Kərəm (Əsli və Kərəm"), Əskər ("Arşın mal alan"), Sərvər ("O olmasın, bu olsun"), Alay ("Gözün aydın"), Murad ("Durna"), Qiyas ("Beşmanatlıq gəlin") oynasa da, o, mahnı ifaçılığına meyl edib və ömrünü bu sahəyə bağlayıb.

Konservatoriyada Gülağa Məmmədov Hüseynqulu Sarabskidən muğam dərslərini, bülbüldən isə vokal sənətinin sirlərini öyrənmişdir.

fikrət Əmirovun, Səid Rüstəmovun, Tofiq Quliyevin, Cahangir Cahangirovun, qəmbər Hüseynlinin, Andrey Babayevin, Ağabacı Rzayevanın və b. mahnılarının ilk ifaçısı olub. Həmin mahnıların əksəriyyəti bu gün də yaddaşlarda Gülağa Məmmədovun səsi ilə qalıb.

# ABDULLAYEV
# GÜLHÜSEYN HÜSEYN OĞLU



Gülhüseyn Abdullayev 1923-cü ildə Masallı rayonunun Mollaoba kəndində anadan olmuş, kiçik yaşlarında ikən ailəsi ilə Bakıya köçdüyündən uşaqlığı, gəncliyi Bakıda keçmişdir. 1942-ci ildə orta təhsilini başa vuran Gülhüseyn Hüseynoğlu Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə daxil olur.

O, Azərbaycan ədəbiyyatı üçün, demək olar ki, tamamilə yeni janrın - mənsur şeirin yaradıcısıdır. Gülhüseyn Hüseynoğlu çox gənc yaşlarından Azərbaycanın müstəqilliyi uğrunda mübarizə aparmış, milli, siyasi-ideoloji baxışlarına və 1942-ci ildə yaratdığı və oraya həmfikirlərini yığdığı "İldırım" təşkilatına görə (Hacı Zeynalov, Azər Ələsgərov, Kamal Əliyev, Vahid Aydınov və b.) 1949-cu ildə sovet hökuməti tərəfindən cəzalandırılır və Sibirə 7 saylı islah-əmək düşərgəsinə göndərilir. 7 ildən sonra - 1955-ci ildə Bakıya qayıdır. Həbs olunana qədər ilk əsərlərini çap etdirmiş, ədəbi-ictimai mühitdə tanınmışdır. Elmi tədqiqat qabiliyyətini nəzərə alaraq onu aspiranturada saxlamışdılar. Həbsdən qayıdandan sonra aspiranturaya bərpa edilmiş və yaradıcılıqla məşğul olmağa başlamışdır.

Yaradıcılığının ilk illərində hekayə, novella, oçerk və povestlər yazmışdır. 1944-cü ildə nəşr edilən "Ana" hekayəsi onun çap olunan ilk hekayəsidir. İkinci əsəri "Bənövşə əfsanəsi" 1946-cı ildə nəşr olunmuşdur.

G.Hüseynoğlunun yaradıcılığında "Ana dili", "Gəncə",

"Mücrü", "Ana torpaq", "Dünyanın qəribə işləri var", "Payım mənim" kimi onlarla mənsur şeirlər mühüm yer tutur.

G.Hüseynoğlu ədəbiyyatşünas-müşfiqşünasdır. O, Müşfiq haqqında ilk monoqrafiyanı yazmış, ilk dissertasiyanı müdafiə etmişdir.

M.Müşfiq haqqında ilk monoqrafiyanı 1968-ci ildə "Müşfiq" adı ilə çap etdirmişdir.

G.Hüseynoğlu 2003-cü ildə 80 illiyi münasibəti ilə "Xalq yazıçısı" adına layiq görülmüşdür. Prezident təqaüdçüsüdür.

Hazırda Gülhüseyn Hüseynoğlu Yazıçılar Birliyində nəsr bölməsinin rəhbəridir.

O, Bakı Dövlət Universitetində müəllim işləmiş, professordur.

## *NAMUS MÜCƏSSƏMƏSİ*

1 sentyabr, 1942-ci il. O zaman Universitet indiki İqtisad Universitetinin binasında yerləşirdi. Qəbul olunmuş tələbələr böyük həyəcanla dərsin başlanmasını gözləyirdilər. Gülhüseyn Hüseynoğlu ilə ilk tanışlığımız həmin gün auditoriyada başlandı. 5 il bir partada oturduq. Bu müddət ərzində bir-birimizi dərindən tanıyıb və sevib dost olduq.

Əlbəttə, bizi birləşdirən eyni fakültədə, eyni sinifdə oxumağımız deyil, eyni fikir, eyni əqidə və eyni arzularla yaşa-mağımız idi.

Etiraf edim ki, çox nadinc tələbə olmuşduq. Burnunun ucundan uzağı görməyən kəmsavad müəllimlərə öcəşmək adətimiz idi.

Çoxdan dünyasını dəyişmiş, adını çəkmək istəmədiyim marksizm-leninizmdən dərs deyən son dərəcə savadsız mü-əlli-

mimizi suallarla təngə gətirdiyimiz yaxşı yadımdadır. Partiya tarixindən başqa heç nəyi bilməyən bu dayaz adamı "quşbeyin" adlandırmışdıq. Bu ad bütün fakültəyə yayılmışdı. Tələbələrdən tutmuş laborantlara qədər hamı onu "quşbeyin" ayaması ilə tanıyırdı. Partiya tarixini bütün elmlərin açarı hesab edən bu müəllim hamının gülüş hədəfinə çevrilmişdi. Bizim fakültədə oxuyan qohumu "quşbeyin" ləqəbinin kimlər tərəfindən verilməsini ona çatdırmışdı. Bir gün biz yenə onu sual yağışına tutanda, o, əsəbləşib bizi auditoriyadan qovdu və imtahanda biletlərə pis-yaxşı cavab versək də, bu dəfə o, hər ikimizi sual yağışına tutub kəsdi. Başqa bütün fənnlərdən yüksək qiymət alsaq da, 6 ay bizi təqaüdsüz qoydu. Sonra biz dekanın köməkliyi ilə başqa müəllimə imtahan verib yaxamızı ondan qurtardıq.

Bizim verdiyimiz suallar dolayısı ilə mövcud quruluşa etiraz əlaməti idi. Biz, o vaxtın gəncləri bizi narahat edən, düşündürən fikirləri öz aramızda çözməyə çalışar və bunları başqalarından da gizlətməzdik.

Universiteti bitirib hər ikimiz aspiranturaya qəbul olunduq. Verəcəyimiz birinci namizədlik minimumu marksizm-leninizm fənnindən idi. Bütün sahələrin aspirantları imtahan vermək üçün bizim fakültəyə toplaşmışdı. Bunların içində Gülhüseyni görmədim.

Qocaman ədibimiz Abdulla Şaiqin oğlu Kamal Talıbzadə mənə yanaşıb Gülhüseynin bu gün səhər həbs olunduğu xəbərini çatdırdı. O zaman Gülhüseyn K.Talıbzadənin qonşuluğunda yaşayırdı. Mən bu bəd xəbəri eşidən kimi başı alovlu onlara gəldim. Məni görən xanımı ağlaya-ağlaya bildirdi ki, həbs etməyə gələnlər 2-3 saat evin altını üstünə çevirmiş, onun yazılarının bir qismini götürmüş və Gülhüseyni də özləri ilə aparmışlar.

Sonra öyrəndim ki, Gülhüseynlə bərabər 7 gəncə 25 il iş kəsib Sibirə sürmüşdülər. Onların məhkəməsində yazıçı Mir Cəlal iclasçı kimi iştirak etmişdi. Bir gün o, gizlincə mənə bildirdi ki, ehtiyatlı olum. Çünki məhkəmədə K.Talıbzadə ilə mənim də adım çəkilmişdi. Gülhüseyn, İsmixan Azər, Hacı bizim onların yaratdığı "İldırım" təşkilatından xəbərsiz olduğumuzu bildirmiş, bizi qorumuşdular. Əslində, biz bu təşkilatın üzvü olmasaq

da, onların yaratdığı antisovet təşkilatın varlığından xəbərdar, əqidələri ilə həmfikir idik.

Bu vətənpərvər gənclər 7 il Sibirin şaxtasında bütün məhrumiyyətlərə dözdülər. Amma sınmadılar, əqidələrindən dönmədilər. Onlar öz fədakarlıqları ilə bu millətin iradəsini, faşist rejiminə qarşı üsyanını, həqiqətin gözünün içinə dik baxa bilmək qüdrətini və namusunu nümayiş etdirdilər. Bu millətin istiqlal və azadlığa layiq olduğunu göstərib tariximizə qəhrəman kimi düşdülər.

Gülhüseyn xarakter etibarı ilə özübütöv, sözübütöv adamdır. Özünün və sözünün ağasıdır. Əqidəsinə gəlincə, onun üçün Vətənin və millətin mənafeyi hər şeydən ucadır. 55 illik dostluğumuza, əqidədaşlığımıza söykənərək deyə bilərəm ki, o, hər şeydən əvvəl düzgünlük və namus mücəssəməsidir. Onun ömrü boyu bir dəfə də olsa yalan danışmadığına özümə inandığım qədər inanıram.

Yaradıcılığa da demək olar ki, bir vaxtda başlamışıq. Bir-birimizin uğurlarına sevinmiş, uğursuzluğuna kədərlənmişik. Onun hekayələri və mənsur şeirləri həqiqətən şeirdir, poeziya nümunələridir. Gülhüseyn Hüseynoğlu əlinə qələm aldığı gündən öz yolu ilə getmiş, əyilib burulmamış, tutduğu yolu bu gün də şərəflə, namusla davam etdirməkdədir.

Mən dostuma getdiyi çətin, lakin şərəfli yolda daha böyük uğurlar və cansağlığı arzu edirəm.

**Bəxtiyar VAHABZADƏ,**
***Xalq şairi***

# ƏFƏNDİYEV RASİM SƏMƏD OĞLU



Rasim Əfəndiyev 1928-ci ildə Qazaxda anadan olmuşdur. 1936-cı ildə 132 saylı məktəbin birinci sinfinə getmiş, məktəbi qurtardıqdan sonra 1945-1950-ci illərdə Ə.Əzimzadə adına Rəssamlıq məktəbində, 1950-1955-ci illərdə SSRİ Rəssamlıq Akademiyası nəzdindəki İ.U.Repin adına Leninqrad Dövlət Rəssamlıq İnstitutunun incəsənət nəzəriyyəsi və tarixi fakültəsində təhsilini davam etdirmişdir.

1961-ci ildə sənətşünaslıq namizədi alimlik dərəcəsi almaq üçün "XVI-XVIII yüzilliklərdə Azərbaycan geyimləri" mövzusunda, 1972-ci ildə isə sənətşünaslıq doktoru alimlik dərəcəsi almaq üçün "XII-XIX yüzilliyin əvvəllərində Azərbaycanın dekorativ-tətbiqi sənəti" mövzusunda dissertasiyalarını müdafiə etmişdir.

1989-cu ildə AMEA-nın müxbir üzvü, daha sonra həqiqi üzvü seçilmişdir. 1996-cı ildən AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun direktorudur. O, 1956-cı ildən Azərbaycan Rəssamlar Birliyinin üzvüdür.

SSRİ Xalq Rəssamı, akademik Mikayıl Abdullayevin Rasim Əfəndiyev haqqında dedikləri: "R.Əfəndi dünya muzeylərində və kolleksiyalarında qorunub saxlanılan Azərbaycanın sənət abidələrinin aşkara çıxarılmasında böyük əmək və qüvvə sərf edir. "Azərbaycanın maddi mədəniyyəti", "Azərbaycanın bədii sənətkarlığı dünya muzeylərində", "Azərbaycan xalq sənəti", "Azərbaycanın daş plastikası", "Azərbaycanın dekorativ tətbiqi sənətlə-

ri", "Azərbaycanın incəsənəti", "İncəsənət" və başqa bu kimi 30-dan artıq kitabında, 200-ə yaxın elmi məqalələrində o, xalqımızın əsrlər boyu yaratdığı sənət əsərlərini geniş təhlil etmiş, elm aləmində ilk dəfə olaraq onların dünya mədəniyyətində tutduğu fəxri yerini göstərmişdir. Müxtəlif vaxtlarda Bakı, Moskva, Sankt-Peterburq, Kiyev, Nyu-York, London, Paris, Tokio, Ankara, İstanbul, Tunis, Budapeşt və başqa şəhərlərdə çap olunan əsərlərində Azərbaycan incəsənətinin tarixi, başqa-başqa sahələri və bir çox nəzəri problemləri işıqlandırılmışdır...

...Rasim Əfəndinin yaradıcılığında Azərbaycan xalq sənətimizin, yəni xalçaçılıq, zərgərlik, dulusçuluq, daş plastikası, bədii tikmə, geyim və s. sahələrin tarixi araşdırılması əsas yer tutur".

Rasim Əfəndiyev Azərbaycan dekorativ tətbiqi sənətinin araşdırılmasında və bir elm kimi respublikamızda inkişaf etdirilməsində böyük xidmətləri olan alimlərdəndir. Onun əsərlərində xalqımızın əsrlər boyu yaratdığı nadir sənət inciləri geniş təhlil edilmiş, elm aləmində ilk dəfə olaraq onların dünya mədəniyyəində mövqeyi açıqlanmışdır.

Bu sənət nümunələrinin böyük bir hissəsini Rasim Əfəndiyev özü toplamışdır. Və həmin sənət nümunələri ilə o, sübut etmişdir ki, Azərbaycanın dekorativ tətbiqi sənəti zəngin ənənələri və bənzərsizliyi ilə Şərq mədəniyyət sistemində əhəmiyyətli yer tutur.

# MƏLİKOVA
# RASİMƏ SƏMƏD QIZI



Rasimə Məlikova (Əfəndiyeva) 1926-cı ildə Qazaxda anadan olmuşdur. 1933-cü ildə 132 saylı məktəbin birinci sinfinə daxil olmuş, 1943-cü ildə məktəbi qurtarmışdır. Məktəbi bitirdikdən sonra ADU-nun şərqşünaslıq fakültəsində oxumuş, sonra təhsilini 1945-1949-cu illərdə Moskvada Şərqşünaslıq İnstitutunda davam etdirmişdir. Bir müddət Moskvada Elmlər Akademiyasının əsaslı kitabxanasında referent-tərcüməçi işləmiş, Bakıya qayıtdıqdan sonra V.İ.Lenin muzeyində elmi işçi, 1959-cu ildən bu günədək AMEA-nın Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyində 31 il elmi katib, hazırda isə böyük elmi işçi işləyir. Filologiya elmləri namizədidir.

"XIX əsr rus şərqşünasları orta əsr şairləri Xaqani və Nizami haqqında" əsəri 1998-ci ildə "Elm" nəşriyyatında çapdan çıxmışdır.

# SƏMƏDOVA
# VƏJİHƏ ƏLİ QIZI



Vəcihə Səmədova 1924-cü ildə Bakıda anadan olmuşdur. Məktəbi 1943-cü ildə qurtarmışdır.

Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq məktəbini bitirdikdən sonra o, təhsilini V.İ. Surikov adına Moskva Rəssamlıq İnstitutunda davam etdirmişdir. (1951) Portret, mənzərə, tematik tablolar çəkmişdir. Çəkdiyi bir sıra portretlərdə müasirlərinin dolğun obrazlarını yaratmışdır. "Azərbaycan bəstəkarları", "Göygölün sahilində", "Xəbər gözləyənlər", "Geoloqlar", "Kürün sahilində" və s. tabloları zəngin milli koloriti, lakonikliyi və kompozisiya aydınlığı ilə fərqlənir.

41 il yaşayan V.Səmədova Əməkdar incəsənət xadimi idi. Əsərləri P.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyində və respublikanın digər muzeylərində saxlanılır.

# Züleyxa
# İsmayıl qızı Hüseynova



Azərbayjanın tanmmış dövlət xadimi, görkəmli alim, professor Züleyxa Hüseynova 1924-jü il may ayının 29-da Bakı şəhərində anadan olmuşdur. O, 1948-ji ildə Azərbayjan Sənaye İnstitutunu, 1952-ji ildə Energetika İnstitutunun aspiranturasını bitirmişdir.

Züleyxa xanım Hüseynova əmək fəaliyyətinə 1952-ji ildə Respublika Elmlər Akademiyasında başlamışdır. O, 1956-1961-ji illərdə Azərbayjan KP Mərkəzi Komitəsində elm şöbəsi müdirinin müavini, 1961-1963-jü illərdə Ali və Orta İxtisas Təhsili Komitəsi sədrinin birinji müavini, 1963-1965-ji illərdə həmin Komitənin sədri, 1965-1970-ji illərdə Ali və Orta İxtisas təhsili naziri vəzifələrində çalışmışdır.

1970-ji ildə Züleyxa xanım Hüseynova Azərbayjan Həmkarlar İttifaqları Şurasının sədri seçilmiş və 1981-ji ilədək bu təşkilata rəhbərlik etmişdir.

1981-1987-ji illərdə o, Nazirlər Sovetinin elm, texnika və təhsil müəssisələri şöbəsinin müdiri işləmişdir.

Züleyxa xanım son illər öz əmək fəaliyyətini Azərbayjan Texniki Universitetinin daxiliyanma mühərrikləri kafedrasının məsləhətçi professoru kimi davam etdirərək bu sahədə elmi-texniki və mühəndis kadrlarının yetişdirilməsində iştirak etmişdir. O, bir çox elmi əsər və ixtiraların müəllifidir.

Züleyxa xanım Hüseynovanın geniş ijtimai fəaliyyəti də olmuşdur. O, dəfələrlə SSRİ Ali Sovetinə deputat seçilmiş, Ali Sovetin daimi Komissiyası sədrinin müavini və sədri,

Asiya və Afrika ölkələri ilə Həmrəylik Komitəsi sədrinin müavini olmuşdur. Züleyxa xanım dünyanın bir çox ölkələrində keçirilən beynəlxalq forumlarda ölkəmizi ləyaqətlə təmsil etmişdir.

Azərbayjan ziyalı qadınının ən gözəl keyfiyyətlərinin daşıyıjısı olan Züleyxa xanım öz bilik və bajarığını doğma xalqının, vətəninin inkişafına sərf etmək yolunda əlindən gələni əsirgəməmişdi. Onun bütün fəaliyyəti fədakarlıq, xalqa sədaqət və yüksək peşəkarlıq nümunəsi olmuşdur.

Züleyxa xanımın çoxjəhətli əməyi dövlət tərəfindən yüksək qiymətləndirilmişdir.

Gözəl insan, əsl şəxsiyyət və ziyalı olan Züleyxa İsmayıl qızı Hüseynova 1996-jı il may ayının 15-də 72 yaşında vəfat etmiş və Fəxri Xiyabanda dəfn edilmişdir.

# TAĞIYEVA ŞÖVKƏT



Şövkət Tağıyeva 1926-ji ildə Bakıda anadan olmuşdur. 1943-jü ildə 132 saylı məktəbi fərqlənmə attestatı ilə bitirmiş, ADU-nun şərqşünaslıq fakültəsinə daxil olmuşdur. 1948-ji ildə universiteti fərqlənmə diplomu ilə bitirmişdir. 1949-ju ilin yanvarında AMEA-nın Tarix İnstitutunda İran tarixi üzrə aspiranturaya daxil olmuşdur. Dissertasiya mövzusunu XX yüzilliyin əvvəllərində Güney Azərbayjanda milli-demokratik hərəkatlar tarixindən götürmüş, ilk araşdırmalarını 1917-1920-ji illərdə Şeyx Məhəmməd Xiyabaninin başçılığı ilə baş vermiş milli-azadlıq hərəkatının tədqiqinə həsr etmişdir və 1954-jü ildə Moskvada SSRİ EA Şərqşünaslıq İnstitutunda müdafiə edərək, elmlər namizədi elmi dərəjəsini almışdır. Əsəri 1956-jı ildə AMEA nəşriyyatında rus dilində çap edilmişdir. Həmin kitab 1958-ji ildə Londonda ingilis dilində "Jentral Asian Revien" dərgisində də (vol.VI, ¹3 və 4) dərj edilmişdir.

1967-ji ildə Ş.Tağıyeva "XIX yüzilliyin sonu və XX yüzilliyin əvvəllərində İranda aqrar münasibətlər" mövzusunda tarix elmləri doktoru elmi dərəjəsini almaq üçün Bakıda AMEA-nın ijtimai elmlər üzrə Müdafiə Şurasında dissertasiya müdafiə etmişdir.

1990-jı ildə Ş.Tağıyevanın "XIX yüzilliyin sonu və XX yüzilliyin əvvəllərində torpaqdan istifadə qaydaları", "İran kəndlərinin vəziyyəti" (həmin dövrdə), "1920-ji il Təbriz üsyanı" və onlarla elmi-publisistik məqalələri Moskvada və digər şərqşünaslıq mərkəzlərində çap edilmişdir. 1975-ji ildə AMEA Şərqşünaslıq İnstitutunda Jənubi Azərbayjan tarixi

şöbəsi yaradıldı və bu şöbəyə rəhbərlik professor Ş.Tağıyevaya tapşırıldı. O, az müddətdə gənj və istedadlı araşdırıjıları bu şöbəyə jəlb etməklə, Güney Azərbayjan tarixi problemlərinin hərtərəfli tədqiq edilməsinə və güneyşünaslıq məktəbinin yaradılmasına nail oldu. Nətijədə "Jənubi Azərbayjan tarixi oçerkləri", I jildi (1828-1917) 1985-ji ildə işıq üzü görmüşdür. Şöbənin növbəti kitabı 2000-ji ildə çapdan çıxmış "Güney Azərbayjan (məlumat kitabı)"dır.

Ş.Tağıyeva məktəblərdə tədris olunan "Azərbayjan tarixi" dərsliyində Güney Azərbayjana aid hissələrin müəllifidir.

**ABŞ tarixçi-azərbayjanşünası Tadeyuş Svyatoxovski Şövkət Tağıyeva haqqında:** "Hörmətli Şövkət xanım! Bu gözəl yubileyinizlə əlaqədar Nyu-Yorkdan ən xoş arzularımı bildirirəm. Azərbayjanı öyrənən bütün müasir alimlər Azərbayjan müstəqilliyinin 10 illiyinə təsadüf edən yubileyinizi və nailiyyətinizi sizinlə bərabər qeyd edirlər. Şəxsən mən Azərbayjana hələ ilk gəlişimdən önjə sizin yazılarınızdan, Azərbayjan məfkurəsindən ilham almışdım. Sonralar sizinlə Bakıda tanış olduqda, mən sizin yalnız akademik alimliyinizin deyil, eyni zamanda məftunediji şəxsiyyətinizin təsiri altına düşdüm. Sizin yubileyiniz təkjə Azərbayjan tarixçiləri üçün deyil, eyni zamanda bütün dünyada Azərbayjanın dostları üçün xüsusi bir gündür. Təəssüflənirəm ki, hal-hazırda Bakıya gələ bilmirəm. Anjaq yaxın gələjəkdə Bakıya səyahət etməyə və sizinlə görüşməyə ümid edirəm. Mənim həyat yoldaşım da bu tədriklərə qoşulur. Ən gözəl diləklərlə".

**Tadeyuş Svyatoxovski,**
**ABŞ, Nyu-York, 2001-ji il**

# MEHDİYEVA MƏRYƏM



Məryəm Mehdiyeva 1927-ci ildə anadan olmuşdur.

1945-ci ildə məktəbi qurtardıqdan sonra Azərbaycan Dövlət Tibb İnstitutunun pediatriya fakültəsinə daxil olmuşdur. İnstitutu bitirdikdən sonra 8 il Xudatda uşaq həkimi, ana-uşaq məsləhətxanasının baş həkimi işləmişdir. Həmin müddətdə rayon sovetinə deputat seçilmişdir. 1959-cu ildən 1965-ci ilədək Bakıda körpələr evində həkim işləmişdir. 1965-ci ildən bu günədək indiki Əfəndiyev adına (köhnə Şaumyan) xəstəxanada işləyir. 23 il uşaq şöbəsinin müdiri olmuşdur. Bir neçə medalla təltif olunmuş, Səhiyyə Nazirliyinin fəxri fərmanına layiq görülmüşdür.

## *MƏNİM MƏKTƏB İLLƏRİM...*

Mən 132 saylı məktəbdə 1943-1945-ci illərdə oxumuşam. On illiyi bu məktəbdə bitirmişəm. Direktorumuz Səidə xanım İmanova idi. Ədəbiyyatdan Balacaxanım müəllimə dərs deyirdi. Bilqeyis Məmmədova isə X[a] sinfinə dərs deyirdi. Biz onuncu sinifdə oxuyarkən Abdulla Şaiqin oğlu Kamal Talıbzadə praktika dərsi keçirdi. Riyaziyyatdan Zeynəb Atakişiyeva, kimyadan Şəkurə müəllimə dərs deyirdi. Bu cür savadlı müəllimlərimizin sayəsində demək

olar ki, sinfimizin əksər qızları ali məktəblərə, o cümlədən böyük bir qismi Tibb İnstitutuna daxil oldu. Mənimlə bir sinifdə oxuyanlardan Məlikova Mərziyə, Hüseynova Xalidə, Qorçiyeva, Tağıyeva Böyükxanım, Zərifə və başqaları institutun pediatriya fakültəsinə daxil olduq. 80 yaşım var, bu gün də, məktəbimizi və müəllimlərimizi minnətdarlıqla yad edirəm.

## SƏMƏDOVA FƏZİLƏ İBRAHİM QIZI



Fəzilə Səmədova 1929-cu ildə Şamaxı şəhərində anadan olmuşdur. 1946-cı ildə Bakının 132 saylı məktəbini qızıl medalla, 1951-ci ildə M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunu kimyaçı-texnoloq ixtisası üzrə bitirib. 1956-cı ildə İ.M.Qubkin adına Moskva Neft İnstitutunun aspiranturasını müvəffəqiyyətlə qurtararaq "Yağların kimyəvi tərkibinin onların istismar xassələrinə təsiri" mövzusunda dissertasiya müdafiə edib, texnika elmləri namizədi elmi dərəcəsi almışdır. 1956-60-cı illərdə M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun neft kimyası və texnologiyası kafedrasında assisent, dosent və professor (1988-ci il) vəzifələrində çalışıb, neftin və qazın texnologiyasından dərs deyib. 1970-77-ci illərdə keçmiş SSRİ-nin Neft və Kimya Sənayesi Nazirliyinin rəhbər işçilərinin təkmilləşdirilməsi İnstitutunun Bakı Filialında "Sürtgü yağlarının texnologiyası" fənnindən mühazirələr oxumuşdur. 1960-cı

ildən AMEA-nın NKPİ-da çalışır. 1981-ci ilə qədər Yağların kimyası və texnologiyası laboratoriyasında böyük elmi işçi, 1982-ci ildən Neftlərin tədqiqi və yağların texnologiyası laboratoriyasının müdiri işləyir. 1977-ci ildən texnika elmləri doktorudur.

Əməkdar elm xadimi, 1995-ci ildən Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü F.İ.Səmədova 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

F.Səmədovanın bütün elmi fəaliyyəti neftlərin tərkib və xassələrinin tədqiqi, onlardan yüksək keyfiyyətli sürtgü yağlarının alınmasını təmin edən texnologiyanın işlənib hazırlanmasına həsr edilib.

1982-ci ildən F.Səmədova yeni yataqlardan çıxarılan neftlərin, eləcə də xarakterik Azərbaycan neftlərinin yüksək molekullu heteroatomlu birləşmələrinin, o cümlədən mikroelementlərin öyrənilməsi istiqamətində tədqiqat aparır. O, eyni zamanda yüksək keyfiyyətli yağların alınmasını təmin edən yeni ekoloji təhlükəsizlik texnoloji proseslərin işlənib hazırlanması ilə məşğuldur. Bu istiqamətdə onun böyük uğurları var, apardığı tədqiqatlar bir sıra müəlliflik şəhadətnaməsi və patentlərin alınması ilə nəticələnib. Onun rəhbərliyilə Azərbaycan neftlərinin fiziki-kimyəvi xassələrini əks etdirən məlumat bankı yaradılmışdır.

Son illərdə o, neftin birbaşa hidrokrekinqi və ifrat kritik ekstraksiya prosesinin iştirakilə yeni emal sxeminin yaradılması istiqamətində tədqiqatlar aparır.

Onun 350-dən çox elmi əsəri, o cümlədən 9 kitabçası, 50-dən çox ixtirası və patenti var.

F.Səmədova neft kimyası və yağların texnologiyası üzrə keçirilən 46-ya yaxın Beynəlxalq simpozium, konfrans, qurultayda 70-dən çox məruzə ilə çıxış etmiş, bir neçəsində təşkilat komitəsinin üzvü olub.

F.Səmədova elmi işi həmişə təşkilatı iş ilə yanaşı aparıb. 1981-ci ildə O, SSRİ EA və Dövlət Elm-Texnika Komitəsinin Əlaqələndirici Koordinasiya Şurasının üzvü seçilmişdir. AMEA Neft-kimya prosesləri və Aşqarlar kimyası institutları nəzdində yaradılmış İxtisaslaşdırılmış Şuraların üzvüdür. "Əməkdə fərqlənməyə görə", "Rəşadətli əməyə görə" və s. medallarla təltif edilib. 2004-cü ildə "Şöhrət" ordeni və Ümumdünya Əqli mülkiyyət cəmiyyətinin xüsusi mükafatı, 2006-cı ildə ADNŞ-ın Fəxri fərmanı ilə təltif edilmişdir.

F.Səmədova Azərbaycan elmini Almaniyada (1964, 1967, 1968-ci illərdə), İraqda (1978-79-cu illərdə), Türkiyədə (1992, 1996-cı illərdə), Çində, İngiltərədə (1998-2005-ci illərdə) və Fransada (1998 və 2005-ci illərdə) və s. ölkələrdə ləyaqətlə təmsil etmişdir.

## *MƏKTƏB XATİRƏLƏRİ...*

Mənim 132 saylı məktəbdə ilk müəllimim Səltənət müəllimə olmuşdur, mən onun nurlu üzünü indi də xatırlayıram. Lakin birlikdə oxuduğum şagirdlərdən yalnız AMEA-nın həqiqi üzvü Rasim Əfəndiyevi görürəm. Məktəbimizdə qızlar və oğlanlar bir yerdə oxuyurdular, dərslər isə Azərbaycan və rus dillərində tədris edilirdi. Məktəbin direktoru əvvəl Qolubkova idi, sonralar isə A.P.Sedova oldu.

Müharibə illərində Qolubkovanın müdir olduğu bu məktəbdə Arkadi Qaydarın "Timur və onun komandası" əsərinin qəhrəmanı olan Timurun fəaliyyətinə uyğun məktəbdə rus və Azərbaycan bölmələrində oxuyan şagirdlərdən xüsusi manqalar yaradılırdı. Mən də bu manqalardan birinin rəhbəri - "Timuru" idim. Biz manqanın üzvləri uşaqlarla birlikdə əsgər ailələrinə baş çəkir, onların ehtiyaclarının ödənilməsində kömək etməyə çalışırdıq.

Yadımdadır, elə bu illərdə şəhər üzrə müharibə mövzusuna aid hekayə yazmaq üçün müsabiqə elan edilmişdi. Mən də bu müsabiqədə iştirak etmək üçün bir hekayə yazıb, müsabiqəyə təqdim etdim.

Günlərin bir günü atam evə zəng edib (o vaxtlar atam İmişli rayonunun partiya komitəsinin 1-ci katibi idi) "Bakinski raboçi" qəzetində mənim müsabiqədə 1-ci yeri tutduğum haqda məlumatı oxuduğunu söylədi. Biz isə bundan xəbərsiz idik, müharibə illəri olduğundan müsabiqənin nəticələri indiki kimi təmtəraqlı keçirilmirdi.

Lakin bu illərdə məktəbin əlaçı uşaqlarını təhsildəki nailiyyətlərini bölüşmək üçün tez-tez radio komitəsinə dəvət edirdilər. Mən də radioda bu haqda çıxış etmişəm.

Qeyd etməliyəm ki, məktəbin abı-havası indikindən xeyli fərqlənirdi. Əlaçı şaqirdlərin fotoşəkilləri şərəf lövhələrində nümayiş etdirilir, onların nailiyyətləri hamıya elan edilirdi.

Bu illərdə bizim çox bilikli və öz vəzifəsinə məsuliyyətlə yanaşan müəllimlərimiz var idi. Bunlardan Zeynəb Atakişiyeva, Nərgiz Əliyeva, Möhtərəmə Əzizova, Şəkurə Əfəndiyeva və s. müəllimlərimizi göstərmək olar.

Biz 7-ci sinifdə oxuyarkən rus dilindən bizə Firudin bəy Firudinbəyov dərs deyirdi. O, A.S.Puşkinin "Yevgeni Onegin" poemasını əvvəldən axıradək əzbər söyləyirdi.

Sonralar rus dilindən dərsi bizə tanınmış müəllim və gözəl insan Xədicə xanım Ağayeva deyirdi. Bu qadın nəinki rus dilini, hətta davranış qaydalarını da bizə öyrədirdi.

1943-cü ildə bizim məktəbi qız məktəbi edib, rus dilində oxuyan qızlardan ayırdılar. Belə ki, Azərbaycan dilində oxuyan qızlar məktəbinin direktoru vəzifəsinə Əli Bayramov klubunda ilkin təhsil almış, sonralar isə tarix elmləri namizədi, ADU-nin dosenti Səidə İmanovanı təyin etdilər. Rus məktəbinin direktoru vəzifəsində isə Qolubkova qaldı. Oğlanlar isə 1 saylı məktəbə köçürüldülər.

Qeyd etməliyəm ki, o vaxtlar məktəblərdə şagirdləri ictimai işlərə cəlb etməklə, onlara təşkilatı işlərdə də püxtələşməyi lazım bilirdilər.

Mən 9-10-cu siniflərdə oxuyarkən məktəbin komsomol komitəsinin katibi idim. Biz məktəbliləri mədəniyyət ocaqlarına aparmağı özümüzə borc bilirdik. Bu sonralar komsomol və partiya təşkilatlarında işləyərkən mənə çox kömək etdi.

O vaxtlar indikindən fərqli olaraq, məktəbi əla qiymətlərlə bitirən tələbələr qızıl və gümüş medallarla təltif edilirdilər. Biz medallar təsis ediləndən sonra 2-ci buraxılış hesab olunurduq. Bizim buraxılış 2 sinifdən ibarət olub, çox istedadlı şagirdlərdən ibarət idi. Buraxılışın 10 nəfər məzunu qızıl və gümüş medallara layiq görülmüşdü.

Ən maraqlısı odur ki, məktəbin əlaçı məzunlarını İ.V.Stalin marşrutu (Bakı-Tiflis-Qori-Batumi-Bakı) ilə gəzməklə mükafatlandırmışdılar. Bu səyahətdə məktəbliləri o zaman başda Rübabə müəllim olmaqla bir neçə müəllim müşayiət edirdi.

Məzunların əsas hissəsi Tibb İnstitutunun, 3 nəfəri Azərbaycan Sənaye İnstitutunun, bir nəfəri Azərbaycan Dövlət Universitetinin, bir nəfəri Xarici Dillər İnstitutunun tələbələri oldular. Məzunların hamısı ali təhsili müvəffəqiyyətlə başa vurub, ölkəmizin müxtəlif sahələrində uğurla çalışıb, öz borclarını ləyaqətlə yerinə yetiriblər.

Məktəbin məzunlarından Fəridə Qasımova ali təhsilini Moskvada başa vurdu. Azadə Rüstəmova və mən aspiranturanı Moskvada bitirib Azərbaycana qayıtdıq, doktorluq dissertasiyası müdafiə edərək AMEA-nın müxbir üzvü olduq. Məzunlardan Nəcəfova Safura əməkdar mühəndis, həkimlərdən bəziləri əməkdar həkim kimi fəxri adlara layiq görüldülər.

Hazırda onların bir hissəsi öz vəzifələrini vicdanla yerinə yetirməkdə davam edirlər.

## SEYİDOVA SƏYYARƏ



Səyyarə Seyidova 1928-ci ildə Bakıda anadan olub. 1946-cı ildə məktəbi bitirib, Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunun Avropa dilləri fakültəsinin ingilis dili şöbəsinə daxil olub. İnstitutu bitirdikdən sonra həmin institutda işləyib.



## VƏZİROVA GÜLRUH

Gülruh Vəzirova 1928-cu ildə anadan olub. Məktəbi 1946-cı ildə bitirib, N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olub. Tibb elmləri namizədidir. Uzun illər Azərbaycan Dövlət Tibb institutunda işləyib, institutun dosenti olub.

## ƏLİYEVA ZƏRİFƏ



Zərifə Əliyeva 1928-ci ildə Bakıda anadan olub. Məktəbi 1946-cı ildə qurtarıb. Həmin ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olub. Uzun müddət tibb müəssisələrində həkim işləyib.

## BAYRAMOVA QÖNÇƏ



Qönçə Bayramova 1928-cu ildə anadan olub. 1946-cı ildə məktəbi qızıl medalla qurtarıb. N.Nərimanov adına Tibb İnstitutuna daxil olub, institutu bitirdikdən sonra səhiyyə ocaqlarında həkim işləyib.

## RƏHİMOVA BƏHRİYYƏ



Bəhriyyə Rəhimova 1929-cu ildə Bakıda anadan olmuşdur. Məktəbi 1946-cı ildə bitirib, elə həmin ildə N.Nərimanov adına Azərbaycan Tibb İnstitutuna daxil olub. İnstitutu bitirdikdən sonra Azərbaycan Tibb İnstitutunda müəllim işləyib. Tibb elmləri namizədi, dosentdir.



## BABAYEVA ZƏHRA

Zəhra Babayeva 1929-cu ildə Bakıda anadan olmuşdur. Məktəbi 1946-cı ildə bitirib. Elə həmin ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb Universitetinə daxil olub. Müxtəlif səhiyyə ocaqlarında həkim işləyib.

# XANLAROVA
# ŞÖVKƏT HÜSEYN BƏY QIZI



Şövkət Xanlarova 1926-jı ildə Bakıda anadan olmışdur.

132 saylı məktəbi 1943-ju ildə əla qiymətlə bitirmişdir.

1949-ju ildə Azərbayajan Sənaye institutunu (indiki Dövlət Neft Akademiyasını) dağ mühəndisi-geoloq ixtisası ilə bitirmişdir.

Bir müddət Qobustan neft-kəşfiyyat trestində, sonralar "Azərneftkəşfiyyat" birliyində geoloci sektorun sənaye kəşfiyyatı şöbəsində çalışmışdır.

1953-jü ildə "Azneft" İstehsalat Birliyində yeni neft və qaz yataqlarının kəşfiyyatı bölməsinə rəhbər təyir edilmişdir.

1966-jı ildə Neft İstismarı Sənayevsi Nazirliyində geologiya şöbəsində baş geoloq işləmişdir. Nazirlik ləğv edildikdən sonra, yenidən "Azneft" İstehsalat Birliyinə köçürülmüşdür.

Əmək fəaliyyəti dövründə "Kirovdağ", "Kürsəngi", "Mişovdağ", "Qaradağ", "Sanqaçal-Duvannı" və s. neft və qaz yataqlarının kəşfində iştirak etmişdir.

15-dən artıq elmi məqalənin, iki kitabçanın müəllifidir. SSRİ Neft Sənayesi Nazirliyinin fəxri fərmanları ilə təltif olunmuş, 1982-ji ildə isə, əməkdar geoloq adına layiq görülmüşdür.

Şövkət xanım Bakının məşhur bəylərindən olan Xanlarovların nəslidəndir.

# QASIMOVA
# FƏRİDƏ MİR HÜSEYN QIZI



Fəridə Qasımova 1930-cu ildə Bakıda fəhlə ailəsində anadan olmuşdur. O, 6 yaşında məktəbə gedib. Orta məktəbi 1946-cı ildə qızıl medalla bitirmişdir. Həmin il Azərbaycan Sənaye institutunun energetika fakültəsinə daxil olmuş və 1947-ci ildə 1-ci kursu qurtardıqdan sonra Moskvanın "Qırmızı əmək bayrağı" ordenli (keç. İ.Stalin adına) "Polad" institutunun 1-ci kursuna daxil olmuş və 1952-ci ildə oranı mühəndis metallurq ixtisası üzrə bitirib.

Həmin il Bakıya qayıtmış, təyinatı ilə Bakının Səttarxan (keçmiş Leytenant Şmidt) adına maşınqayırma zavoduna işləməyə göndərilmişdir.

1952-1961-ci illərdə zavodda texnoloq, sexdə şöbə rəisi və Texniki nəzarət şöbəsində rəis müavini vəzifələrində çalışmışdır.

1961-ci ilin aprel ayında Bakı Şəhər Soveti sədrinin müavini vəzifəsinə təyin edilmişdir. O, bu vəzifədə 1971-ci ilin iyun ayına kimi işləmiş və on il müddətində Bakı şəhərində mədəniyyət və səhiyyə sahələrinin inkişafında üzərinə düşən vəzifələrin yüksək səviyyədə həllinə nail olmuşdur.

1971-ci ilin iyul-oktyabr aylarında Azərbaycan Kommunist Partiyası Bakı Komitəsinin instruktoru vəzifəsində işləmiş və həmin ilin noyabr ayında Azərbaycan Respublikası Dövlət Nəşriyyat Komitəsi sədrinin müavini vəzifə-

sinə təyin edilmiş və 1980-cı ildə sentyabr ayına kimi bu sahədə çalışmışdır.

Komitədə işlədiyi dövrdə kitab nəşriyyatı və satışı məsələlərinin zamanın tələblərinə uyğun təşkil olunmasında Fəridə xanım öz intellektual səviyyəsindən məharətlə istifadə etmişdir. Xüsusilə, kitabların yüksək poliqrafik üsulla çap edilməsinə, gənc şair və yazıçıların əsərlərinin nəşr edilib yayılmasına böyük diqqət və gərgin əmək sərf etmişdir.

Əməkdə və respublikanın siyasi-ictimai həyatında fəal iştirakına görə 1960-cı ildə "Qırmızı Əmək Bayrağı" ordeni, 1964-cü ildə Azərbaycan SSR Ali Soveti Fəxri Fərmanı, 1970-ci ildə "V.İ.Leninin anadan olmasının 100 illiyi ilə bağlı şərəfli əmək" yubiley medalı və 1971-ci ildə "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

## İSMAYILOV TOFİQ NAĞI OĞLU



Tofiq İsmayılov 1933-cü ildə Bakı şəhərində anadan olub.

1941-ci ildən 1947-ci ilə qədər H.Cavid adına 132 saylı orta məktəbdə oxumuşdur.

1949-1953-cü illərdə Bədən Tərbiyəsi Texnikumunda oxumuşdur. 1956-1960-cı illərdə Azərbaycan Dövlət İdman Akademiyasını bitirmişdir. 1960-cı ildən H.Cavid adına 132 saylı orta məktəbdə idman müəllimi işləyib.

# ZEYNALOVA SEVİL YUSİF QIZI



Sevil Süleymanova - Zeynalova 1929-cu ildə Bakı şəhərində anadan olmuşdur. 1947-ci ildə Bakı şəhərinin 132 saylı orta məktəbini qızıl medalla başa vurmuşdur. Həmin ildə Azərbaycan Sənaye institutunun memarlıq-tikinti fakültəsinə daxil olmuşdur. Bu fakültə 1950-ci ildə Azərbaycan Politexnik İnstitutunun tərkibinə verildiyi üçün o, 1953-cü ildə həmin İnstitutu bitirərək memar ixtisası üzrə diplom almışdır. 1953-cü ildə "Azərdövlətlayihə" İnstitutunda memar kimi fəaliyyətə başlamış, sonra böyük memar, qrup rəhbəri vəzifələrini tutmuşdur. 1960-cı ildən 1988-ci ilin sonuna qədər Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi Aparatında təlimatçı vəzifəsində çalışmışdır. 1989-cu ildə Azərbaycan Respublikası Memarlar İttifaqında böyük məsləhətçi, 1992-ci ildən Bakı şəhər İcra Hakimiyyətinin Memarlıq və Şəhərsalma Baş idarəsində baş mütəxəssis vəzifələrində işləmişdir. 2006-cı il mart ayının 1-dən təqaüddədir. Azərbaycan Memarlar İttifaqının üzvüdür. "Əmək rəşadətinə görə" medalı, Azərbaycan SSRİ Ali Soveti rəyasət heyətinin fəxri fərmanı ilə təltif edilmişdir. Əmək veteranıdır.

***Müəllimələrim haqqında xatirələrim...***

Ədəbiyyat fənnini müəlliməmiz Bilqeyis xanım Məmmədova tədris edirdi. Biz onun dərsini çox sevərdik. O illər məktəbimiz qızlar məktəbi idi. Sinfimizin bütün qızları Bilqeyis müəlliməyə vurulmuşdular. O, hündür qamətli, təmkinli, çox alicənab bir qadın idi. Dərslərimiz o qədər

maraqlı keçərdi ki, bilməzdik dərs nə vaxt başladı, nə vaxt qurtardı. Elə hamımız can atardıq ki, bizə diqqət yetirsin, hər birimizlə ünsiyyətdə olsun. Ən maraqlısı isə onun klassiklərdən, Füzulidən, Nizamidən şeirlər söyləməsi idi.

Riyaziyyatdan müəlliməmiz Zeynəb Atakişiyeva idi. O, çox zabitəli və tələbkar idi. Mənim ən sevimli müəllimələm idi. Onun dərslərində həmişə çalışardım ki, bütün tapşırıqları hamıdan tez və mükəmməl həll edim. O da buna çox yüksək qiymət verərdi. O, məktəbdə riyaziyyat dərnəyi təşkil etmişdi. bu dərnəyin sədrliyini mənə həvalə etmişdi. O, hətta məktəbi bitirəndən sonra da mənim müvəffəqiyyətlərimlə maraqlanar, məni öz mənzilinə dəvət edərək uzun-uzun söhbət edər, gələcək həyata istiqamətləndirərdi.

Allah müəllimələrimizə rəhmət eləsin, qəbirləri nurla dolsun.

## ƏLƏKBƏROVA ŞƏRQİYYƏ MUXTAR QIZI



Şərqiyyə Ələkbərova 1931-ci ildə Bakıda anadan olmuşdur. məktəbi 1948-ci ildə qızıl medalla bitirmişdir. Moskva Energetika institutunun radio-texnika fakültəsində ali təhsil alıb.

1949-cu ildə Ümumittifaq komsomolunun XI qurultayının nümayəndəsi olub. 1954-cü ildə Bakı radio zavodunda mühəndis, 1955-59-cu illərdə indiki Xətai rayonunda komsomol komitəsinin I katibi və sonra MK-da tələbələr şöbəsində işləyib. 1959-cu ildən bu günədək

EA-nın Fizika İnstitutunda işləyir. 1966-cı ildə yarımkeçiricilər fizikası sahəsində namizədlik dissertasiyasını müdafiə edib. İlk dəfə olaraq əks cərəyanı geniş intervalda sabit qalan selen düzləndiricilərini alıb. Onun rəhbərlik etdiyi qrupda gümüş halkogenidlərində anion və kation əvəzetmə ilə üçqat birləşmələrin monokristalları, nazik təbəqələri alınıb, onların optik və elektrik xassələri tədqiq edilib, çevirici və yaddaş elementləri hazırlanıb. 9 ixtiranın, 70-dən çox elmi məqalənin müəllifidir. 1971-82-ci illərdə SSRİ EA-nın Mikroelektronika seksiyasının üzvü olub. "Əməkdə fərqləndiyinə görə" medalı ilə təltif edilib. Hazırda Fizika İnstitutunda aparıcı elmi işçidir.

Ş.Ələkbərova 1988-ci il mayın 16-da Azadlıq meydanındakı ilk mitinqdə separatçılığa qarşı qəti tədbirlər görmək tələbi ilə çıxış edib. 1990-cı ildə İstanbulda azəri-türk dərnəklərinin I qurultayında, 1995-ci ildə Pekində, qeyri-dövlət qadın təşkilatlarının IV Ümumdünya forumunda "Erməni əsirliyində olan qadın və uşaqlarımız" mövzusunda çıxışını rus və ingilis dillərində müxtəlif ölkələrdən gəlmiş nümayəndələr arasında yaymışdır.

## *ŞƏRQİYYƏ ƏLƏKBƏROVANIN XATİRƏLƏRİNDƏN...*

Mən Bakının 132 saylı məktəbə 1938-ci ildə daxil olub, 1948-ci ildə bitirmişəm. Müharibə başlanana qədər, yəni 5-ci sinfədək, məktəb həm rus, həm Azərbaycan şöbələrindən ibarət idi. Oğlanlarla qızlar birgə oxuyurdular. Biz 6-cı sinifdə oxuyanda 132 saylı məktəb rus (134 saylı məktəb) və Azərbaycan sektorlarına (132 saylı məktəb) bölündü və hər iki məktəb qız məktəbi oldu. O vaxt Bakı məktəblərinin yarısından çoxu hospitallara çevrildiyin-

dən, hər partada üç-üç otururduq. Hər sinifdə 40-dan çox şagird var idi. Yer sıxlığı, kasıb dolanışıq, çoxumuzun ayaqyalın, nimdaş pal-paltarda, hətta üst geyimsiz olduğuna baxmayaraq, heç kəs dərsləri buraxmazdı və demək olar ki, xəstələnmirdilər və ən "fantastik" bir hal: siniflərdəki qazla işləyən divar sobaları fasiləsiz olaraq otaqları qızdırırdı (bizim sinif rəhbərimiz Gülrux müəllimə sobaya söykənib dərs deməyi xoşlayardı).

O vaxt məktəbin direktoru tarixçi Səidə İmanova, daha sonra Rübabə Axundova, dərs hissə müdiri - tarix müəlliməsi Nərgiz Əliyeva, Nəzirə Bədəlova, riyaziyyat müəllimləri Zeynəb Atakişiyeva, Sadıq Sadıqov, rus dili müəllimləri: Xədicə xanım (o, bizim bəzi müəllimlərə gimnaziyada dərs demişdi), Balacaxanım Musayeva, Olqa Vəkilova (qızı opera teatrında balerina idi), kimya müəlliməsi Şəkurə müəllimə, fizika müəllimi Rəhim müəllim (o, bizə deyəndə ki, vaxt gələcək telefonla danışanda bir-birinizi görəcəksiniz, evdə kino, teatr tamaşalarına baxacaqsınız, biz gülüşürdük), biologiyadan Gülrux Əlibəyli, ədəbiyyatdan Balacaxanım Həşimova, Bilqeyis müəllimə, fransız dilindən - Taisiya Vasiliyevna dərs deyiblər. Tam əminliklə deyə bilərəm ki, 132 saylı məktəbin 40-50-ci illərin məzunlarının zəhmətsevərliyi, yüksək savadlılığı, ictimai həyatda fəallıqları, bizim 60 ildən sonra belə unutmadığımız müəllimələrimizin, 132 saylı məktəbdə bərqərar olmuş xoş məramın, yaşından, sinfindən asılı olmayaraq şəxsiyyətə hörmətin, biliyin, işgüzarlığın yüksək qiymətləndirilməsinin bəhrəsidir. müəllim-şagird münasibətlərinin kökündə qarşılıqlı hörmət, səmimiyyət durexcurdu.

Məktəb illərimiz müharibə və müharibədən sonrakı ağır illərdə keçsə də, indi də məmnuniyyətlə xatırlayıram bizim özfəaliyyət dərnəklərimizi: Əminə Dilbazi rəqs dərnəyinə, Cahangir Abdullayev xor dərnəyinə rəhbərlik et-

mək üçün məktəbə dəvət edilmişdilər. Bizi səhnə üçün hazırlamırdılar. Elə-belə, balaca məktəbli qızlarda incəsənətə, yaradıcılığa maraq aşılayırdılar. Riyaziyyat, ədəbiyyat, əl işləri dərnəkləri də mənəvi dəyərlərin üstünlüyünü beynimizə həkk edirdi. Zeynəb müəllimə deyəndə ki, həndəsi teoremləri kim qafiyələndirə bilər, heç həndəsəyə meyli olmayanlar da həvəslə bu yarışa qoşulurdular. Məktəbdə demək olar ki, bütün fənlərdən dərnəklər var idi. Hər bazar ertəsi unudulmaz Bilqeyis müəllimə bizə sərbəst, heç gözləmədiyimiz mövzuda inşa verərdi. Bu isə hamını mütəmadi mütaliə ilə məşğul olmağa sövq edirdi. 9-cu sinifdə ədəbiyyat müəlliməmiz Balacaxanım müəllimə idi. O vaxtlar "xalq düşmənləri" kimi "tabu" qoyulmuş şairləri sinədəftər bilirdi. Mən sinifkom idim. Mənim oturduğum partaya yaxınlaşıb pıçıltı ilə: "qızlardan birini pusquda qoy, sizə Hüseyn Caviddən, Müşfiqdən, Əhməd Cavaddan 1-2 ağız şeir deyəcəyəm". Bu bizim ən çox gözlədiyimiz anlar idi. Bir dəfə də olsun - o vaxtlar üçün "kriminal" sayılan bu epizodlar sinifdən kənara çıxmadı... Balacaxanım müəllimə daxilən çox demokratik ruhlu adam idi. Balacaxanım müəllimə ilə əlaqədar xeyli "qeyri-standart" epizodlar yadımda qalıb: məktəbdə ədəbi gecə keçiriləcəkdi. "Siz də "Hacı Qaranı" məşq edin", deyib tam arxayınlıqla bunu mənə həvalə etdi. O vaxt mən məktəbin komsomol katibi idim. Gah raykoma, gah slyotlara getməli olurdum. Öhdəmdə də dəqiq fənlərdən özünü inamlı hiss etməyənlər var idi. Yəni, vaxt cəhətdən "seytnotda" idim. Vaxt gəlib çatdı, biz isə yalnız rolları bölüşdürmüşdük, məşq etməmişdik. Buna baxmayaraq, bizi elan edən kimi, cəsarətlə səhnədə peyda olduq. Əsərin yalnız məzmununu bilirdik, amma konkret rolları yox. Mən "Hacı Qara" idim. Biz "özfəaliyyətə" başlayanda gülməkdən müəllimlərin, başqa tamaşaçıların gözlərindən yaş axırdı. Tamaşaçı-

lar bizi "gurultulu alqışlarla" dalbadal səhnəyə çağırırdılar. Tək Balacaxanım müəllimə... ağlayırdı. Onda bildik ki, Azərbaycan ədəbiyyatını sinədəftər bilən, demokratik ruhlu müəlliməmizin yumor cəhətdən problemləri var imiş... Amma, Rübabə müəllimə ona deyəndə ki, çoxdan bu qədər gülməmişdik. O da, nəhayət gülənlərə qoşuldu. Sonra onu inandırdıq ki, bizim kimi çıxış etməyə az adam cəsarət edər: "rolları əzbərləyib çıxmaq asandır, yoxsa bizim kimi inprovizasiya etmək?!..."

Riyaziyyat dərnəyinin də yaradıcılıq gecələri olurdu.

Və əksəriyyətini məhz biz şagirdlər hazırlayırdıq: Perelmanın əyləncəli riyaziyyat kitabı əsasında o qədər riyazi fokuslar göstərmişdik ki... Məktəbimizdə bərqərar olmuş xoş, sağlam əhval-ruhiyyə elə bil ki, məktəbin divarları arasında böyüyüb həyata qədəm qoyan bizləri - 132 saylı məktəbin 50-60 il bundan əvvəlki məzunlarını qan qohumları kimi yaxınlaşdırmışdır. Bunu bir-birimizlə təsadüfən görüşəndə üzlərdəki təbəssüm, gözlərdəki sevinc yaşları büruzə verir. 90-cı ildə ictimai fəaliyyətimlə əlaqədar 132 saylı məktəbə qədəm qoyanda, qapıda bir cavan qadın məni adımla çağırdı. Məktəbin direktoru Aliyə xanım idi. Sən demə o, Bilqeyis müəllimənin gəlini imiş. Deməli, bizlər də müəllimlərimizin xatirəsində yaşamışıq.

Savad, bilik, mənəviyyat-insanın "xüsusi çəkisi" cəmiyyət üçün dominant olanda, ən ağır illərdə belə 132 saylı məktəb kimi nümunəvi məktəblər olurdu. Bunun üçün bu məkanda insani dəyərlər yüksək qiymətləndirilməlidir. "Mənfi yüklü" xətlər təlim və tədrisə yaxın buraxılmamalıdır. Yalnız savadlı, vətənpərvər olan millət qüdrətli dövlət qura bilər.

# HÜSEYNOVA TAMARA HÜSEYNAĞA QIZI



Tamara Hüseynova 1931-ci ildə anadan olmuşdur. 1948-ci ildə 132 saylı məktəbi bitirmişdir. Həmin ildə Azərbaycan Sənaye institutuna daxil olmuşdur. 3-cü kursdan Azərbaycan Politexnik İnstitutunun inşaat memarlıq fakültəsinə keçirilmişdir. Azərbaycan Politexnik institutunu 1954-cü ildə qurtarmışdır. Təyinatla Sənaye Layihələşdirmə institutunda işləmişdir. Hələ tələbəikən 1952-ci ildə Moskva şəhərinə, Mosproyektdə təcrübə keçməyə göndərilmişdir. Həmin vaxtda Mosproyektdə Azərbaycanın Hökumət Evinin layihəsi hazırlanırdı. Tamara Hüseynova həmin layihənin milli memarlığımıza uyğun işlənməsinə yaxından kömək etmişdir. Azərbaycanın rayonlarında tikilmiş bir sıra binaların layihəsini hazırlamışdır.

Axırıncı illərdə Azərbaycan bədii rəssamlar fondunda işləmişdir.

# SƏFƏROVA - KAZIMOVA SƏYYARƏ MUSA QIZI



Səyyarə Kazımova 1932-ci ildə anadan olmuşdur. 1949-cu ildə məktəbi qurtardıqdan sonra Azərbaycan Sənaye İnstitutunun energetika fakültəsinə daxil olmuşdur.

uzun müddət Bakı Rabitə Texnikumunda dərs demişdir.

**Məktəb illərini Səyyarə Kazımova belə xatırlayır:**

sinfimizi bitirən 23 nəfər şagirdin hamısı alı təhsil alıb. Məktəbin direktoru Səidə İmanova olmaqla bütün müəllimlər mənim ürəyimdə insana xas olan ən yüksək alicənablıq nümunəsi, xoş xatirələrlə qalıb. Onlar bizdə yüksək bilik, insani xüsusiyyətlər oyatmaqla, əxlaqlı, zəhmətsevər etmişlər.

Bizə ədəbiyyat dərsi deyən Bilqeyis müəllimə ədəbiyyatı, mütaliəni bizə o qədər sevdirmişdi ki, hansı sahədə işləməyimizdən asılı olmayaraq, orada biz şairlərlə görüş təşkil etmişik, ətrafdakılara ədəbiyyatı sevdirməyə çalışmışıq. Mən mühəndis olsam da dərs dediyim Bakı Rabitə Elektrotexnikumunda öz tələbələrimə şeiri sevdirmiş, şairlərlə görüşlər təşkil etmişəm. Hal-hazırda 75 yaşım var, təqaüdçüyəm. Yenə də bütün müəllimlərimə minnətdaram.



# ZEYNALOVA SOLMAZ YUSİF QIZI

Solmaz Zeynalova 1932-ci ildə Bakı şəhərində anadan olmuşdur.

1949-cu ildə məktəbi gümüş medalla bitirmişdir. Həmin ildə Azərbaycan Dövlət Tibb institutuna (pediatriya fakültəsinə) daxil olub, oranı 1955-ci ildə pediatr ixtisası üzrə bitirmişdir.

İnstitutun təyinatına əsasən Kamenski (indiki Rostov) vilayətinin Yefremova-Stepanovka kəndinə pediatr göndərilmişdir. Orada 3 il işləyib Bakı şəhərinə qayıtmışdır.

1959-cu ildən 1991-ci ilə qədər Bakı şəhəri 8 km qəsəbəsi (Nizami r-nu) 17 saylı uşaq poliklinikasında əvvəl sahə həkimi, sonradan şöbə müdiri vəzifəsində çalışmışdır.

## *XATİRƏLƏRİ...*

Uzun müddət həm orta, həm də ali məktəbdə dərs deyən və orta məktəbə rəhbərlik edən **Səidə müəllimə** haqqında danışarkən gözümün qarşısında səmimi, mülayim, həm də tələbkar, məsuliyyətli bir insan canlanır.

Yaxşı yadımdadır, 132 saylı məktəbdə oxuyarkən məktəbə yeni müdir gələcəyini xəbər verdilər. Əvvəllər şagirdlər çox narahat oldular, lakin o, məktəbə gəldikdən sonra biz sanki yeni bir insan kəşf etdik. Bu gözəl müəllimə elə bil öz təmkini, rəvan və şirin danışığı ilə bizi ovsunladı. Səidə müəllimə bacarıqlı bir rəhbər olmaqla bərabər gözəl və əvəzsiz bir müəllimə idi. Onun şagirdləri tarix fənnini qəlbən sevirdilər.

Səidə İmanova bir alim, müəllim, gözəl insan kimi xatirində yaşayır.

Xatirimdə daima canlanan unudulmaz müəllimlərimdən biri də **Rübabə Axundovadır.**

Rubabə Axundova bizə ədəbiyyatdan dərs deyirdi. O, şagirdlərdə yüksək mənəvi keyfiyyət aşılanmasına xüsusi diqqət yetirər, dərslərində qısa və emosional sözlərdən istifadə edərək bu fənnə böyük maraq oyadardı. O, mütaliəyə xüsusi diqqət yetirər, bizə oxunan əsərlərə düzgün qiymət verməyi öyrədərdi. Bununla bərabər məktəbdə ədəbi-bədii gecələrin keçirilməsini də təşkil edərdi.

Rübabə xanım SSRİ Ali Sovetinə deputat seçiləndə bizim sevincimizin həddi-hüdudu yox idi.

Sənətini və şagirdlərini sevən müəllimlərimiz az olmamışdır. Möhtərəmə müəllimə, Nərgiz Əliyeva, Zeynəb Atakişiyeva, Balacaxanım, Hökumə Quliyeva və b. xatirəmdə əbədi yaşayır.

## MƏMMƏDZADƏ SEVDA SALEH QIZI



Sevda Məmmədzadə 1931-ci ildə Şəki şəhərində müəllim ailəsində anadan olmuşdur. məktəbi 1949-cu ildə bitirib Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə daxil olmuş, 1954-cü ildə universiteti bitirmişdir. həmin ildən  fasiləsiz olaraq indiyə qədər Azərbaycan radiosunda diktor vəzifəsində çalışır. 1990-cı ildə Əməkdar artist fəxri adına, 2006-cı ildə isə Prezident təqaüdünə layiq görülüb.

## ZEYNALOVA ZƏRİFƏ



Zərifə Zeynalova 1933-cü ilin fevral ayının 5-də Bakı şəhərində anadan olmuşdur. 1950-ci ildə 132 saylı orta məktəbi qızıl medalla bitirib və həmin il N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuşdur.

Zərifə xanım 1956-cı ildə institutu fərqlənmə diplomu ilə bitirmişdir.

İnstitutu bitirdikdən sonra Bakının müxtəlif tibb müəssisələrində həkim işləmişdir. Elmi-tədqiqat işinə olan sonsuz həvəs onu 1961-ci ildə SSRİ Ttbb Elmləri Akademiyasının Azərbaycan Eksperimental və Kliniki Təbabət İnstitutunun kardioloji şöbəsinin aspiranturasına gətirib çıxarmışdır. 1966-cı ildə namizədlik və 1973-cü ildə doktorluq dissertasiyaları müdafiə edən professor Z.A.Zeynalova bacarıqlı kardioloq, istedadlı alim-klinisist idi.

# RÜSTƏMOVA AZADƏ



Azadə Rüstəmova 1932-ci ildə Bakıda anadan olmuşdur. Məktəbi 1949-cu ildə qurtarıb. Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsini bitirmişdir. Təhsilini başa vurduqdan sonra AMEA-nın Nizami adına Ədəbiyyat institutunun orta əsrlər Azərbaycan ədəbiyyatı şöbəsində baş elmi işçi, 1978-ci ildən ömrünün sonunadək şöbə müdiri vəzifəsində işləmişdir. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı tarixinin tarixi-nəzəri problemlərinə - epik şeirin təşəkkülü və inkişafı, Azərbaycan ictimai-bədii fikrində Renessansa dair tədqiqatların müəllifidir. Fələki Şirvani, Nəsimi, Füzuli və s. klassiklərin, xüsusilə Nizami Gəncəvi irsinin öyrənilməsində xidməti var. Əməkdar elm xadimi, Ali Attestasiya Komissiyasının Ekspertlər Şurasının üzvü, 300-ə qədər elmi məqalə, 13 monoqrafiya müəllifi Azadə xanım "Şərəf nişanı" ordeni və medallarla təltif olunmuşdur.

"Azərbaycan epik şeirinin inkişaf yolları", "Nizami Gəncəvi", "Stopı stoletiya" və s. əsərlərin müəllifidir.

A.Rüstəmova AMEA-nın müxbir üzvü seçilmişdir.

## MƏLİKASLANOVA LEYLA



Leyla Məlikaslanova 1932-ci ildə Qarabağın Tuğ kəndində anadan olub. Valideynləri bəy nəslindən olduğuna görə 1937-ci ildə tutulmuşlar.

məktəbi 1949-cu ildə bitirib, həmin ildə M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun kimya texnologiyası fakültəsinə daxil olub. İnstitutu bitirdikdən sonra Hidroneft Elmi Tədqiqat İnstitutunda böyük mühəndis vəzifəsində işləmişdir.

"Azəri-Türk" Qadınlar Birliyinin sədr müavinlərindən biri olmuşdur.

## AXUNDOVA FİRƏNGİZ HÜSEYN QIZI



Firəngiz Axundova 1933-cü ildə Bakı şəhərində anadan olmuşdur. 1950-ci ildə 132 saylı orta məktəbi gümüş medalla bitirmişdir. Həmin il M.Əzizbəyov adına Azərbaycan Sənaye institutuna (hazırda Azərbaycan Dövlət Neft Akademiyası) daxil olmuş, 1955-ci ildə ali məktəbi mühəndis-texnoloq ixtisası üzrə fərqlənmə diplomu ilə bitirmişdir.

Əmək fəaliyyətinə SSRİ Kimya Sənayesi Nazirliyinin Sumqayıt şəhərində yerləşən müəssisələrindən birində tex-

niki nəzarət şöbəsinin laborantı kimi başlayan F.Axundova 1967-ci ildə Azərbaycan SSR EA Neft-kimya prosesləri institutunun aspiranturasına daxil olmuşdur. 1972-ci ildə “Tetrahidroftal turşuların bəzi törəmələrinin epoksidləşməsi və sintezinin tədqiqi" mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək kimya elmləri namizədi alimlik dərəcəsi almışdır.

1972-1973-cü illərdə M.Əzizbəyov adına Azərbaycan Sənaye institutunun kimya texnologiyası fakültəsinin laboratoriyasında mühəndis, 1973-74-cü illərdə xlor-üzvi birləşmələr laboratoriyasında baş elmi işçi, 1974-1991-ci illər arasında isə həmin institutun əcnəbi tələbələr üçün hazırlıq fakültəsinin ümumtəhsil fənləri kafedrasında baş müəllim vəzifələrində çalışmışdır.

## KƏRİMOVA RƏFİQƏ SÜLEYMAN QIZI



Rəfiqə Kərimova 1932-ci ildə anadan olmuşdur. Məktəbi 1950-ci ildə bitirmişdir.

1950-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun pediatriya fakültəsinə daxil olub, 1956-cı ildə oranı pediatr kimi qurtarmışdır. Həmin ildə təyinatla Astarada pediatr, sonralar Limon sovxozunda baş həkim işləmişdir. 1960-cı ildən Lənkəran Uşaq xəstəxanasında pediatr, hal-hazırda isə sahə həkimi işləyir.